RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 156 (9611) 26 iyul 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## 31 köç, 807 ailə, 3057 nəfər...

### Qarabağ və Şərqi Zəngəzura qayıdış sürətlə davam edir



Suverenliyini tam təmin etmiş Azərbaycanın son üç il yarımlıq qısa zaman kəsiyində əldə etdiyi qələbələrin, uğurların sayını, miqyasını cild-cild kitablara belə sığdırmaq mümkün deyil. Ölkəmizin uğur salnaməsinə yazılan möhtəşəm səhifələrdən biri isə bu müddətdə Qarabağ və Şərqi Zəngəzurda aparılan geniş quruculuq və Böyük qayıdış zəfərləridir.

Azərbaycan dövləti tərəfindən bu torpaqlarda dünyada bənzərinə rastlanmayan tikinti-quruculuq işləri aparılır, meqa-layihələr gerçəkləşdirilir, digər tərəfdən isə onilliklər boyu yurdlarına həsrət qalan, vətəndə qəribçilik çəkən keçmiş məcburi köçkünlərimiz ay-ulduzlu, üçrəngli bayraqlarımızın bəzədiyi qayıdış köçləri ilə də-də-baba ocaqlarına dönürlər, sevinc içərisində yenidən bu torpaqlarda xoşbəxt yaşama başlayırlar...

→ 5

## Şuşa siyasi diskussiyaların da məkanı olub

İyulun 20-22-də Şuşada keçirilən "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda II Şuşa Qlobal Media Forumu da belə əhəmiyyətli tədbirlərdən biri idi. Şuşa Qlobal Media Forumu mətbuat tariximizdə böyük tarixi hadisədir. Foruma 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyinin, 3 beynəlxalq təşkilatın və 82 media qurumunun nümayəndələrinin qatılması tədbirin tariximiz, cəmiyyətimiz və gələcəyimiz üçün böyük əhəmiyyətə malik olduğunu bir daha dünyaya göstərdi. Demək olar ki, forum iştirakçıları üçün həm də birgə müzakirə platforması rolunu oynadı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin forumun açılış mərasimindəki çıxışı, iştirakçıların çoxlu sayda suallarını ətraflı cavablandırması dünya ictimaiyyətində və mediasında böyük maraq doğurmuş və geniş işıqlandırılmışdır. Çünki burada müzakirə olunan mövzular bəşəri xarakter daşıyırdı.

Moderator Rebekka Maklaflin-İsthamın yalan məlumatların ifşası və dezinformasiyaya qarşı mübarizə mövzusunda verdiyi sualı cavablandıran Prezident İlham Əliyev demişdir: "Təəssüflər olsun ki, bu gün dünyada baş verənlər məhz bu mövzunun bir növ qurbanına çevrilibdir. Təəssüf ki, bu, bizim artıq həyat tərzimizin bir hissəsinə çevrilibdir. Bəzən biz təəccüblənirik ki, Azərbaycan haqqında beynəlxalq mediada yayılan məlumatlar həqiqətə uyğun olmur - yəni faktların manipulyasiyası, yanlış narrativlər. Biz uzun illər ərzində bunun qurbanı olmuşuq, əlbəttə ki, onlardan biri Ermənistan və Azərbaycan arasındakı münaqişə idi və bütün erməni diasporunun səfərbər olması idi. Ermənipərəst siyasətçilər, media nümayəndələri Azərbaycana qarşı hücum edirdilər, Azərbaycan haqqında yanlış narrativlər yayırdılar və Azərbaycanı reallıqdan çox uzaq olan bir şəkildə təqdim edirdilər..."

→ 4

## Zəfər parkı qəhrəmanlıq simvoludur



İllərdən bəri həsrətini çəkdiyimiz, 4 ildir ki, sevincini yaşadığımız Zəfər qəhrəmanlıq və hünər sayəsində əldə olundu. Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Ermənistan silahlı qüvvələrini ağır məğlubiyyətə uğradaraq yenilməz gücünü, qüdrətini bütün dünyaya nümayiş etdirdi. Bir daha təsdiq olundu ki, işğalçı, təcavüzkar məhvə məhkumdur. Düşmən üzərində qazanılmış bu möhtəşəm qələbədə hər bir əsgərin, hər bir zabitin payı var.

İkinci Qarabağ müharibəsində Azərbaycan xalqına Zəfər sevinci yaşadan qəhrəman zabit və əsgərlərimiz də unudulmadı. Onlar dövlət tərəfindən layiqincə mükafatlandırıldılar. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən "Zəfər" və "Qarabağ" ordenləri, həmçinin 15 yeni medal olmaqla - "Vətən Müharibəsi Qəhrəmanı", "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" medalları təsis olundu. Vətən müharibəsində iştirak etmiş, aparılan döyüş əməliyyatlarının uğurla başa çatmasına töhfə vermiş hərbi qulluqçular, həmçinin mülki işçilər yeni təsis edilmiş orden və medallarla təltif edildilər.

Yaşanılmış tarix bir daha göstərir ki, qəhrəmanlıq heç vaxt unudulmur. 2020-ci il dekabrın 3-də Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncama uyğun olaraq, Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda daim yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması işləri aparılır. Dövlət başçısının sərəncamından dərhal sonra Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihələri hazırlandı və sürətlə tikinti işlərinə başlanıldı.

→ 9

## Ermənistan təxribatları dayandırmadığı təqdirdə lazımi cavab tədbirləri görüləcək

### Azərbaycan Respublikasının Müdafiə Nazirliyi bəyanat yayıb

AZƏRTAC xəbər verir ki, bəyanatda deyilir:

"Azərbaycan Respublikasının Müdafiə Nazirliyi son günlərdə Ermənistanın Kəlbəcər istiqamətində ağır silahlar və Tovuz istiqamətində kvadrokopter tətbiq etməklə təxribatlar törətməsi barədə məlumatlar verib.

Qeyd edək ki, Ermənistan tərəfindən bu kimi təxribatların törədilməsi birinci hal deyil və davamlı xarakter daşıyır. Amerika Birləşmiş Ştatlarının Ermənistanda keçirdiyi hərbi təlimlər, Fransanın Ermənistanı öldürücü silahlarla təchiz etməsi və Avropa İttifaqı tərəfindən "Avropa Sülh Fondu" adı altında Ermənistana ilkin mərhələdə on milyon avro dəyərində hərbi yardımın göstərilməsi işğalçı Ermənistanı bu kimi təxribatlar törətməyə həvəsləndirir və Azərbaycana qarşı növbəti müharibəyə hazırlaşdırılmasına dəlalət edir.

Müdafiə Nazirliyi bir daha xəbərdarlıq edir ki, Ermənistan və onun havadarları Cənubi Qafqaz regionunda yeni müharibə ocağı yaratmaq kimi niyyətlərindən çəkinməlidirlər. Ölkəmizə qarşı bu kimi təxribat əməlləri dayandırılmadığı təqdirdə, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin arsenalında olan bütün vasitələrdən istifadə etməklə özünü müdafiə məqsədilə lazımi cavab tədbirləri görüləcək.

Bildiririk ki, regionda vəziyyətin gərginləşməsinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin və onun havadarlarının üzərinə düşəcək".

## Ermənistan kvadrokopteri Azərbaycan Ordusunun mövqeləri üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərib

İyulun 25-də saat 10:55 radələrində Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopter Azərbaycan Ordusunun Tovuz rayonunun Ağdam yaşayış məntəqəsi istiqamətindəki mövqeləri üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, bölmələrimizin sayıqlığı nəticəsində aşkar olunan pilotsuz uçuş aparatının fəaliyyətinə xüsusi texniki vasitələrlə müdaxilə edilib və ərazidən uzaqlaşdırılıb.

## Həm Azərbaycana, həm də BƏƏ-yə məmnunluq bəxş edən tərəfdaşlıq

### **Prezident İlham ƏLİYEV:** "Masdar" "yaşıl enerji"yə keçid sahəsində ən öndə gedən şirkətdir"

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) bu şirkəti ilə tərəfdaşlığın tarixi qısa olsa da, görülən işlər hər iki tərəfə yalnız məmnunluq gətirir. Belə ki, keçən il oktyabrın 26-da şirkətin tikdiyi 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası işə salındı. Obyektin təməlqoyma mərasimi isə 2022-ci il martın 15-də Prezident İlham Əliyevin iştirakı ilə keçirilmişdi. Prezident stansiyanın açılışında da iştirak etdi.

→ 7



## *Türkiyəli ekspert:* "Zəngəzur dəhlizi ilk fürsətdə açılması vacib olan sülh marşrutudur"

**"Türk Dövlətləri Təşkilatı (TDT) təkcə təşkilata üzv və müşahidəçi ölkələrlə deyil, həm də türk dünyasının maraqlarının təşviqi baxımından mühüm əhəmiyyət kəsb edən dövlətlərlə əməkdaşlığa çalışmalıdır".**

AZƏRTAC xəbər verir ki, bu fikri TOBB-un Ankara İqtisadiyyat və Texnologiya Universitetinin dosenti Ali Oğuz Diriöz "Independent Türkçe" nəşrində dərc olunan "TDT əməkdaşlıq mexanizmlərini necə genişləndirə bilər?" sərlövhəli məqaləsində yazıb. Ekspert nümunə kimi Türkiyə ilə digər TDT ölkələri arasında ticarət, logistika və nəqliyyat əlaqələrinin inkişafı kontekstində vacib olan Gürcüstanı göstərib. "TDT ölkələri ilə Gürcüstan, Tacikistan və Monqolustan kimi dost dövlətlər arasında qarşılıqlı əlaqənin xüsusi mexanizmlərini yaratmaq yollarını tapmaq lazımdır", - deyə Ali Oğuz Diriöz qeyd edib.

Onun fikrincə, Azərbaycanla uzunmüddətli sülh sazişi bağlanarsa, Türk Dövlətləri Təşkilatı Ermənistanla da dialoq apara bilər: "Zəngəzur dəhlizi sülh marşrutudur və ilk fürsətdə açılmalıdır. Bu marşrutun açılması Türkiyə ilə Türk dünyasının digər ölkələri arasında tədarük kanalları baxımından mühüm alternativ təşkil edəcək və logistika xərclərini azaldacaq".

O, Ermənistan və Azərbaycan liderlərinin 2023-cü ildə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasimində iştirakını xatırladıb. "Bu, regionda sülh və əməkdaşlıq üçün mühüm fürsətdir və onu əldən vermək olmaz. Digər TDT ölkələri Cənubi Qafqazda uzunmüddətli sülh üçün səyləri təşviq etməlidir. Regional əməkdaşlıqdan təkcə Türkiyə və Azərbaycan deyil, Ermənistanın özü də böyük fayda əldə edəcək. İrəvan artıq TDT ilə əməkdaşlığın gələcək faydalarını dərk etməlidir", - deyə ekspert vurğulayıb.

Türkiyəli ekspertin sözlərinə görə, TDT-nin strateji məqsədi mühüm qlobal ticarət arteriyası olan Orta dəhlizi inkişaf etdirmək və onun təhlükəsizliyini təmin etməkdir. O əlavə edib: "TDT Şərq və Qərb arasında münasibətləri sabitləşdirəcək mühüm dialoq platformasına çevrilə bilər".

## Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 fevral tarixli 1290 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 fevral tarixli 1290 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 132 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti haqqında Əsasnamə"də dəyişiklik təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2024-cü il*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 358 QƏRAR Bakı şəhəri, 25 iyul 2024-cü il

### "Ədliyyə orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan ədliyyə orqanları işçilərinə və onların ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının məbləği və ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında

"Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1147-VIQD nömrəli Qanununun tətbiqi və "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 iyul tarixli 430 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 25 may tarixli 71 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Ədliyyə orqanlarında xidmət yerinin dəyişdirilməsi ilə əlaqədar yaşayış yeri olmayan və bu səbəbdən kirayə götürülmüş mənzildə yaşayan ədliyyə orqanları işçilərinə və onların ailə üzvlərinə mənzil kirayəsi üçün pul kompensasiyasının məbləği və ödənilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Qaydada göstərilən maliyyələşdirmə məsələləri Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrılmış vəsait hesabına həyata keçirilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 359 QƏRAR Bakı şəhəri, 25 iyul 2024-cü il

### "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1134-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 19 aprel tarixli 1134-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsindən irəli gələn bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 2 mart tarixli 36 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 140 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissədə ", tərcüməçi və hal şahidləri" sözləri "və tərcüməçi" sözləri ilə əvəz edilsin;

1.2. 4-cü hissədə ", onların qanuni nümayəndələri və hal şahidləri" sözləri "və onların qanuni nümayəndələri" sözləri ilə əvəz edilsin;

1.3. 5-ci hissədə ", tərcüməçilərin və hal şahidlərinin" sözləri "və tərcüməçilərin" sözləri ilə əvəz edilsin;

1.4. həmin Qərarla təsdiq edilmiş "İcraatında inzibati xəta haqqında iş olan hakimin yanına, səlahiyyətli orqana (vəzifəli şəxsin yanında) gəlməklə əlaqədar olaraq zərər çəkmişlərin, şahidlərin, onların qanuni nümayəndələrinin, ekspertlərin, mütəxəssislərin, tərcüməçilərin və hal şahidlərinin çəkdikləri xərclərin ödənilməsi Qaydası" üzrə:

1.4.1. adında və 1-ci hissədə ", tərcüməçilərin və hal şahidlərinin" sözləri "və tərcüməçilərin" sözləri ilə əvəz edilsin;

1.4.2. 2-ci hissədə ", tərcüməçilərə və hal şahidlərinə" sözləri "və tərcüməçilərə" sözləri ilə əvəz edilsin;

1.4.3. 3-cü hissədən və 5-ci hissənin birinci və ikinci abzaslarından ", hal şahidlərinə" sözləri çıxarılsın.

2. "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 77 nömrəli, 23 fevral tarixli 97 nömrəli, 9 mart tarixli 130 nömrəli, 27 mart tarixli 182 nömrəli və 27 iyun tarixli 320 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin funksional təsnifatına əlavə"nin "3.5.0. "Hüquqi yardım" köməkçi bölməsində ", tərcüməçilərin və hal şahidlərinin" sözləri "və tərcüməçilərin" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə"nin "222970. "Məhkəmə və mediasiya prosesi ilə bağlı xidmətlərin ödənilməsi" maddəsinin birinci cümləsində və "222972. "Məhkəmə prosesi ilə bağlı digər xidmətlər" yarımmaddəsində ", şahid və hal şahidlərinə" sözləri "və şahidə" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Nazir Samir Şərifov iqlim maliyyəsi üzrə hədəfin qəbul olunması üçün G20 maliyyə nazirlərinə çağırış edib

**Braziliyanın Rio-de-Janeyro şəhərində Böyük İyirmiyə (G20) üzv ölkələrin maliyyə nazirləri və Mərkəzi Bank rəhbərlərinin toplantısı çərçivəsində iyulun 24-də "COP28-G20 Braziliya maliyyə istiqaməti: Dayanıqlı maliyyənin mümkün, əlçatan və əlverişli edilməsi" adlı tədbir keçirilib.**



Maliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, COP28 prezidentliyinin və Braziliyanın Maliyyə Nazirliyinin dəvəti əsasında Azərbaycanı sözügedən iclasda maliyyə naziri Samir Şərifovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Qlobal iqlim dəyişikliyi üzrə davamlı maliyyə mənbələrinin təmin edilməsinin qiymətləndirilməsinə həsr olunan tədbirin açılış hissəsində çıxış edən nazir Samir Şərifov bildirib ki, artan iqlim böhranı ilə əlaqədar qlobal çağırışa cavab tədbirləri müvafiq həcmdə və təxirə salınmadan maliyyə təminatının yaradılmasını tələb edir. Bu öz növbəsində, 2015-ci ildə qlobal iqlim sazişini (Paris Sazişi) imzalamış dünya ölkələrinin üzərinə götürdükləri karbon qazlarının emissiyasının azaldılması öhdəliklərinin inkişaf etməkdə olan ölkələrin payına düşən hissəsinin icrası üçün inkişaf etmiş ölkələr tərəfindən illik əsasda iqlim maliyyəsinin həmin ölkələrə ayrılmasını reallaşdıran maliyyə mexanizminin yaradılmasını zəruri etsə də, xeyli müddət ötməsinə baxmayaraq, onun ərsəyə gətirilməsi hələ də gündəmdədir. Bu hal cari ildə Bakıda keçiriləcək COP konfransı zamanı Paris Sazişinin məqsədlərinə çatmaq üçün yeni iqlim maliyyə hədəfinin (Yeni Kollektiv Kəmiyyət Hədəfi) müəyyənləşdirilməsini və saziş tərəfləri arasında razılaşdırılmasını daha da aktuallaşdırır.

Nazir ədalətli və iddialı yeni iqlim maliyyə hədəfini müəyyənləşdirmək, inkişaf etməkdə olan ölkələrin iqlim inkişafı gündəliyinin ehtiyaclarını qarşılamaq və Paris Sazişinə etimadı bərpa etmək üçün Bakıda keçiriləcək COP29 tədbirinin münbit meydança olacağını vurğulayıb və iqlim maliyyəsi üzrə hədəfi bu il qəbul etmək üçün Böyük İyirmiliyin müstəsna rola malik olduğunu qeyd edərək G20 dövlətlərinin maliyyə nazirlərini mövqelərinin razılaşdırması üçün əlavə səylər göstərməyə çağırıb.

İnkişaf etməkdə olan ölkələrin iqlim maliyyəsi ehtiyaclarını qarşılamaq üçün əlavə maliyyə resurslarının mobilizasiyasının tələb olunduğunu vurğulayan nazir Samir Şərifov Braziliyanın G20 sədrliyi zamanı iqlim maliyyəsi üzrə xüsusi yaradılmış işçi qrupun işinə Azərbaycanın da dəvət olunduğunu nəzərə alaraq, həmin işçi qrupun gündəliyinə çoxtərəfli inkişaf banklarının resurs bazalarının artırılması məsələsinin daxil edilməsini və buna nail olunması üçün Böyük İyirmiliyin maliyyə nazirlərinə xüsusi hesabatın hazırlanaraq təqdim olunmasını təklif edib.

Braziliya səfəri çərçivəsində nazir Samir Şərifov bu ölkənin maliyyə naziri Fernando Haddad və ətraf mühit və iqlim dəyişikliyi naziri Marina Silva, eləcə də Birləşmiş Ərəb Əmirliklərinin maliyyə məsələləri üzrə dövlət naziri Məhəmməd Əl Hüsseini, İndoneziyanın maliyyə naziri və İqlim Dəyişikliyi üzrə Maliyyə Nazirləri Koalisiyasının həmsədri Sri Mulyani İndravati, COP28-in Baş direktoru Majid Al Suvaidi, Beynəlxalq Valyuta Fondunun sərəncamçı direktoru Kristalina Georgiyeva və Dünya Bankının Prezidenti Ajay Banga ilə ikitərəfli görüşlər keçirib.

Görüşlərdə G20 prezidentliyi və COP30 gələcək prezidentliyi qismində Braziliya, hazırkı COP28 prezidentliyi qismində Birləşmiş Ərəb Əmirlikləri ilə COP29 prezidentliyi qismində Azərbaycan arasındakı əməkdaşlıq əlaqələri, G20-nin iqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Hədəfinin Bakıda müəyyənləşdirilməsi və qəbul edilməsindəki rolunun dəyərləndirilməsi, çoxtərəfli inkişaf banklarının resurs bazalarının artırılması, özəl kapitalın iqlim maliyyəsinə cəlb edilməsi yolları və COP29-un Bakıda keçirilməsi ilə əlaqədar digər məsələlər müzakirə olunub.

## Baş nazir Əli Əsədov Türkiyənin Konstitusiya Məhkəməsinin sədri ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 25-də Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin sədri Kadir Özkaya ilə görüşüb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə, o cümlədən siyasi, ticarət-iqtisadi, investisiya, enerji, nəqliyyat-tranzit və digər istiqamətlərdə mövcud əlaqələrin davamlı inkişafından məmnunluq ifadə olunub. Eyni zamanda məhkəmə-hüquq sahəsində uzunmüddətli səmərəli tərəfdaşlıq təqdir edilib.

Türk Dövlətləri Təşkilatının beynəlxalq nüfuzunun artırılmasında və regional güc mərkəzinə çevrilməsində Azərbaycan və Türkiyə prezidentlərinin səylərinin önəmi qeyd olunub.

İki ölkənin Konstitusiya məhkəmələri arasında həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar, xüsusilə də Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransı Təşkilatı çərçivəsində həyata keçirilən əməkdaşlığın əhəmiyyəti vurğulanıb.

Görüşdə Azərbaycan-Türkiyə qarşılıqlı faydalı əməkdaşlığının müxtəlif istiqamətlərdə, o cümlədən məhkəmə-hüquq sahəsində inkişaf perspektivləri müzakirə olunub.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev də görüşdə iştirak edib.

## Azərbaycan ilə Serbiya arasında əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 25-də Serbiya Respublikasının mədəniyyət naziri, iki ölkə arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Serbiya tərəfindən həmsədri Nikola Selakoviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə zəngin tarixə malik Azərbaycan-Serbiya dostluq və strateji tərəfdaşlıq əlaqələrinin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olunub. Ticarət-iqtisadi, investisiya, neft-qaz, sənaye sahələrində fəal əməkdaşlığın həyata keçirildiyi vurğulanıb.

Dövlət başçıları arasında əldə olunan razılaşmaların praktiki icrasının qarşılıqlı faydalı tərəfdaşlığın daha da genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olunub.

Tərəflər Hökumətlərarası Komissiyanın Bakıda keçirilən 8-ci iclasının önəminə toxunublar.

Görüşdə həmçinin iki ölkə arasında ticarət dövriyyəsinin və qarşılıqlı investisiyaların artırılması, nəqliyyat-tranzit, bərpaolunan enerji, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

## Azərbaycan və Serbiya arasında Hökumətlərarası Komissiyanın 8-ci iclası keçirilib



**Azərbaycan və Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 8-ci iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycan və Serbiya liderlərinin siyasi iradəsi, səyləri nəticəsində ölkələrimiz arasında əlaqələrin daim inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini vurğulayıb.

Nazir Sahil Babayev iki ölkə arasında sosial, nəqliyyat, iqtisadiyyat və digər sahələrdə sıx münasibətlərin olduğunu diqqətə çatdırıb. O, bu gün imzalanacaq protokolun növbəti tədbirlərin həyata keçirilməsinə rəvac olacağını qeyd edib.

Serbiya Respublikasının mədəniyyət naziri, Hökumətlərarası Komissiyanın Serbiya tərəfindən həmsədri Nikola Selakoviç iki ölkə arasında münasibətlərin bütün sahələrdə olduğu kimi siyasi müstəvidə də inkişaf etdiyini diqqətə çatdırıb. "Biz beynəlxalq siyasi arenada eyni dəyərləri bölüşürük. Serbiya hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib. Qaçqın və məcburi köçkünlərin torpaqlarına qayıdışını təbrik edirəm", - deyə nazir əlavə edib.

İqtisadi və ticari göstəricilərin çox yüksək səviyyədə inkişaf etdiyini deyən həmsədr Azərbaycan qazının Şərqi və Qərbi Avropaya nəqlində Serbiyanın bir vasitəçi rolunu oynamaq istədiyini vurğulayıb.

O qeyd edib ki, Azərbaycan və Serbiya arasında vizasız rejim mövcuddur, lakin birbaşa uçuşlar həyata keçirilmir: "Biz bu məsələnin bu ilin sonuna qədər həll yolunu tapmalıyıq. Bu, həmçinin biznes əlaqələrinin inkişafına töhfə verə bilər".

Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayev iki ölkə arasında fəal əməkdaşlıq olduğunu, xüsusilə ərazi bütövlüyü məsələsində Azərbaycan və Serbiyanın bir-birini dəstəklədiyini bildirib. Serbiya və Azərbaycanın iqtisadi-ticari münasibətlərə böyük önəm verdiyini vurğulayan nazir müavini turizm, təhsil və digər sahələrdə də əlaqələrin inkişafının önəmini qeyd edib. O, viza rejiminin aradan qaldırılmasının önəmli məsələlərdən biri olduğunu deyib.

Serbiyanın ölkəmizdəki səfiri Draqan Vladisavljeviç ikitərəfli diplomatik münasibətlərin ənənəvi dostluq və qarşılıqlı dəstəyə əsaslandığını söyləyib. İqtisadi, hərbi və siyasi sahələrdə birgə təşəbbüslər həyata keçirildiyini bildirib.

Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov iqtisadi sahədə ikitərəfli münasibətlərin əhəmiyyətli dərəcədə artdığını və bu əlaqələrin 5 dəfə böyüdüyünü qeyd edib. O, bir sıra Serbiya şirkətlərinin Azərbaycanda aktiv fəaliyyət göstərdiyini vurğulayıb və Azərbaycanın "yaşıl enerji" və 4-cü Sənaye İnqilabının mərkəzinə çevrilməsini əsas məqsəd olaraq göstərib. Nazir müavini işğaldan azad edilmiş ərazilərdə tikinti və quruculuq işlərində Serbiya şirkətlərinin iştirakını arzuladığını söyləyib və Serbiyadan olan həmkarlarını COP29-a dəvət edib.

Serbiya İqtisadiyyat Nazirliyinin dövlət katibi, xanım Andrea Horvat Kralj bildirib ki, Azərbaycan investorları üçün Serbiyadakı investisiya imkanları haqqında mesaj vermək əməkdaşlığın inkişafına böyük töhfə verə bilər. Serbiyada investisiya mühiti, gələcək layihələr və potensial sahələr haqqında daha ətraflı məlumat vermək investorların marağını artırmaq üçün faydalı ola bilər. Həmçinin iki ölkə arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi üçün konkret addımlar atılmalıdır.

Sonra komissiyanın həmsədrləri iclasın yekunlarına dair protokolu imzalayıblar. Sənəddə müxtəlif sahələrdə gələcək əməkdaşlıq istiqamətləri əhatə olunur.

İclasdan sonra keçirilən brifinqdə çıxışı zamanı əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev "yaşıl enerji" dəhlizinin Azərbaycan üçün önəmli məsələlərdən biri olduğunu bildirib. "Ölkəmizin "yaşıl enerji" potensialı 150 QVt-dan artıqdır. Məqsədimiz bu enerjinin Avropa bazarlarına çıxışını təmin etməkdir. Həmçinin qeyd etmək istəyirəm ki, qısa zamanda Azərbaycanın "yaşıl enerji"sinin Serbiyaya ixracı planlaşdırılır", - deyə o, əlavə edib.

Serbiya Respublikasının mədəniyyət naziri, Hökumətlərarası Komissiyanın Serbiya tərəfindən həmsədri Nikola Selakoviç diqqətə çatdırıb ki, qarşılıqlı münasibətlərin dərinləşməsində iki ölkənin prezidentlərinin böyük rolu var: "Birbaşa uçuşların təşkil olunması da vacib məsələdir, biznes imkanlarının inkişaf etdirilməsi əhəmiyyətlidir. İnanıram ki, çox sahədə əməkdaşlıq edə bilərik".

# Xarici işlər naziri diplomatik xidmət orqanlarında əmək fəaliyyətinə yeni başlayan gənc diplomatlarla görüşüb

**İyulun 25-də xarici işlər naziri Ceyhun Bayramov diplomatik xidmətə qəbul ilə bağlı keçirilmiş sayca ikinci müsabiqə prosesi nəticəsində Xarici İşlər Nazirliyində əmək fəaliyyətinə başlamış gənc diplomatlarla görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov çoxmərhələli müsabiqə prosesini uğurla tamamlayaraq diplomatik xidmət orqanlarında işə başlayan gənc diplomatları ürəkdən təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Diplomatik fəaliyyətlərinə dövlətimizin başçısı tərəfindən müəyyən olunan xarici siyasətin icrasına məsul olan Xarici İşlər Nazirliyində başlayacaq gənclərə bu məsuliyyətli fəaliyyətdə malik olduqları akademik, praktiki bilik və bacarıqları tətbiq etmək istiqamətində müvafiq tövsiyələr verilib.

Ölkəmizin diplomatiya tarixi, xarici siyasətimizin əsasları, prioritetləri barədə ətraflı məlumat verən Ceyhun Bayramov Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən hazırkı müstəqil, suveren və ambisiyalı xarici siyasət kursumuzun əsasında müstəqillik dövrümüzün mürəkkəb şəraitində Ulu Öndər Heydər Əliyev tərəfindən verilmiş çətin qərarların durduğunu vurğulayıb.

Müstəqilliyimizin ilk illərində üzləşdiyimiz hərbi işğal və münaqişə çağırışlarının aradan qalxması ilə Azərbaycanın beynəlxalq münasibətlər sistemində regional və qlobal təhdidlərlə mübarizədə təşəbbüs sahibi, habelə bu təşəbbüsləri həyata keçirmək iqtidarında olan bir ölkə kimi çıxış etdiyi bildirilib. Postsovet ölkələri arasında ilklərdən biri olaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməyimizin, Qoşulmama Hərəkatında nümunəvi sədrliyimizin, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyimizin uğurla həyata keçirilməsinin bunun əyani sübutu olduğu diqqətə çatdırılıb.

Ölkəmiz tərəfindən aparılan fəal xarici siyasət kursunun uğurlu icrası istiqamətində diplomatlarımızın daim öz bilik və bacarıqlarının artırılması üzərində çalışmalı olduqları bildirilib, bu istiqamətdə Xarici İşlər Nazirliyi tərəfindən həyata keçiriləcək bir sıra proqramlar vasitəsilə prosesin dəstəklənəcəyi qeyd olunub.

Qeyd edək ki, yazılı imtahan (test tapşırıqları, analitik yazı bacarıqları və xarici dil biliklərinin yoxlanılması hissələri) və müsahibə mərhələlərindən ibarət işə qəbul müsabiqəsinin nəticələrinə əsasən, ümumilikdə 57 namizəd (29 qadın və 28 kişi) müsahibə mərhələsini müvəffəqiyyətlə başa vurub. Həmin namizədlərdən 35 nəfər artıq Xarici İşlər Nazirliyində əmək fəaliyyətinə başlayıb, yaxın müddət ərzində isə bu istiqamətdə digər təyinatların edilməsi nəzərdə tutulur.

# Kamran Əliyev ŞƏT-in baş prokurorlarının konfransında iştirak edib

**Xəbər verildiyi kimi, baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Bişkek şəhərində işgüzar səfərdədir.**




İyulun 25-də Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) üzv dövlətlərin baş prokurorlarının 22-ci iclası keçirilib. Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti iclasın işində dialoq üzrə tərəfdaş qismində iştirak edib.

Qırğız Respublikasının Prezidenti cənab Sadır Japarov videomüraciətində tədbir iştirakçılarını salamlayaraq, iclasın işinə uğurlar arzulayıb.

Tədbirdə çıxış edən baş prokuror milli prokurorluq orqanlarının rəqəmsallaşması və bu sahədə aparılan islahatlara toxunaraq, müasir tələblərə cavab verən "Elektron prokurorluq informasiya sistemi"nin fəaliyyəti barədə məlumat verib, müasir cinayətkarlıqla mübarizədə yüksək texnologiyalardan istifadənin vacibliyini vurğulayıb.

Baş prokuror işğal dövründə Ermənistan tərəfindən Azərbaycanın Qarabağ bölgəsində iqtisadi və sosial infrastrukturun tamamilə dağıdıldığını, həmçinin bu günə qədər 300-dən çox Azərbaycan vətəndaşının mina terrorunun qurbanı olduğunu bildirərək, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlət başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığı barədə həmkarlarını məlumatlandırıb.

Bu ilin iyun ayında Xankəndi şəhər prokurorluğunun təntənəli açılış mərasiminin keçirildiyi barədə danışan Kamran Əliyev bu addımın işğaldan azad olunan ərazilərdə qanunçuluğun təminatına verilən önəmin göstəricisi olduğunu qeyd edib.

Kamran Əliyev həmçinin dünyanın ən mötəbər beynəlxalq tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un, cari ilin 29 sentyabr - 2 oktyabr tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağının ölkəmizdə keçiriləcəyini bildirərək həmkarlarını mötəbər tədbirdə iştiraka dəvət edib.

Baş prokuror rusiyalı həmkarı İqor Krasnov və Çinin baş prokuroru Ying Yong ilə görüşlər keçirib, gələcək əməkdaşlıq perspektivləri barədə fikir mübadiləsi aparıb.

İclasda ölkəmizin Qırğızıstandakı fövqəladə və səlahiyyətli səfiri Lətif Qəndilov iştirak edib.

# Türk Dövlətlərinin Baş Prokurorlar Şurasının üçüncü iclası keçirilib

**İyulun 25-də Bişkekdə 2021-ci ildə Bakıda təsis olunmuş Türk Dövlətləri Təşkilatı (TDT) Baş Prokurorlar Şurasının 3-cü iclası keçirilib.**




Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyənin baş prokurorlarının, TDT Baş katibinin rəhbərlik etdikləri nümayəndə heyətlərinin, beynəlxalq Prokurorlar Assosiasiyasının Baş müşavirinin qatıldıqları iclasda Qırğız Respublikasının Prezidenti Sadır Japarovun videomüraciəti nümayiş olunub. Prezident iclasın işinə uğurlar arzulayıb.

Tədbirdəki çıxışında ölkəmizin türk birliyinə xüsusi əhəmiyyət verdiyini qeyd edən baş prokuror Kamran Əliyev bunun Prezident İlham Əliyevin tarixi "bizim başqa ailəmiz yoxdur, bizim ailəmiz türk dünyasıdır" sözləri ilə təsdiqləndiyini vurğulayıb.

Kamran Əliyev TDT-yə üzv dövlətlərdə qanunçuluğun və hüquq qaydasının təmin edilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi, cinayətkarlığın bütün formalarına qarşı mübarizə sahəsində səylərin birləşdirilməsinə və qarşılıqlı əməkdaşlığın daha səmərəli həyata keçirilməsinə mühüm töhfə verəcəyini bildirib.

Baş prokuror Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün tam şəkildə bərpa olunduğu, dövlətimizin başçısının və ölkəmizin Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın diqqət və qayğısı ilə Qarabağda sürətli bərpa və quruculuq işlərinin aparıldığı barədə həmkarlarını məlumatlandırıb.

Baş prokuror həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un sentyabrın 29-dan oktyabrın 2-dək Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransının və ümumi yığıncağının ölkəmizdə keçiriləcəyini bildirərək həmkarlarını mötəbər tədbirdə iştiraka dəvət edib.

Yekunda Bişkek bəyanatı qəbul edilib, növbəti iclasın 2025-ci ildə Özbəkistanda keçirilməsi qərara alınıb.

Tədbirdə ölkəmizin Qırğızıstandakı fövqəladə və səlahiyyətli səfiri Lətif Qəndilov da iştirak edib.

Səfər çərçivəsində baş prokuror Qazaxıstanın və Özbəkistanın baş prokurorları, həmçinin Beynəlxalq Prokurorlar Assosiasiyasının Baş müşaviri ilə görüşərək gələcək əməkdaşlıq məsələlərini müzakirə edib.

Baş Prokurorluğun nümayəndə heyətinin Qırğızıstana işgüzar səfəri başa çatıb.

# Mərkəzi Seçki Komissiyasının Daxili İşlər Nazirliyi ilə birgə layihəsi çərçivəsində Gəncədə seminar-müşavirə keçirilib






**2024-cü il sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının Daxili İşlər Nazirliyi (DİN) ilə birgə layihəsi çərçivəsində Gəncədə seminar-müşavirə keçirilib.**

AZƏRTAC xəbər verir ki, Gəncə 2-ci polis şöbəsində keçirilən seminar-müşavirədə Mərkəzi Seçki Komissiyasının üzvü Qabil Orucov, Gəncə Şəhər Baş Polis İdarəsinin rəis müavini Mehman İbrahimov, Mərkəzi Seçki Komissiyasının və Daxili İşlər Nazirliyinin nümayəndələri, dairə seçki komissiyalarının sədrləri, polis idarələri və şöbələrinin nümayəndələri iştirak ediblər.

Tədbirdə Milli Məclisə seçkilərin hazırlanıb keçirilməsində, seçkiqabağı təşviqat dövründə, habelə səsvermə günü və ondan sonrakı proseslərdə polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş rol və vəzifələrindən danışılıb.

Mərkəzi Seçki Komissiyası Katibliyinin müdiri İlqar Əlizadə tədbirdə seçki subyektləri, onların hüquq və vəzifələri, seçki subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilənin yolverilməzliyi mövzusunda çıxış edib.

Sonra DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsində idarə rəisi Sənan Əliyev seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün ictimai qaydanın təmin edilməsi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələri, seçkidən sonrakı dövrdə seçki bülletenlərinin, digər seçki sənədlərinin dairə və Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı təhlükəsizlik tədbirlərinin görülməsi barədə məlumat verib.

Sonda suallar cavablandırılıb.

# Polşanın Azərbaycandakı səfirinin ölkəmizdəki diplomatik fəaliyyəti başa çatır

**İyulun 25-də xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdəki diplomatik fəaliyyətinin başa çatması münasibətilə Polşanın Azərbaycandakı səfiri Rafal Poborski ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı ikitərəfli və regional gündəlikdə duran məsələlər müzakirə olunub.

Tərəflər ölkələrimiz arasında mövcud əməkdaşlıq münasibətlərindən danışaraq bu xüsusda ali səviyyədə həyata keçirilən təmasların və görüşlərin dostluq, hörmət və strateji tərəfdaşlığa əsaslanan əməkdaşlığın inkişafına təkan verdiyini qeyd ediblər.

Azərbaycanla Polşa arasında siyasi, iqtisadi, energetika, alternativ enerji, humanitar, təhsil və digər sahələr üzrə ikitərəfli münasibətlərin geniş perspektivə malik olduğu, əlaqələrin inkişafında siyasi məsləhətləşmələr mexanizminin, habelə parlament diplomatiyasının əhəmiyyəti qeyd edilib.

Bu il ölkəmizdə keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) ikitərəfli və çoxtərəfli əməkdaşlığın daha da inkişafı üçün əhəmiyyətli olduğu vurğulanıb.

Nazir Polşa səfirinin ikitərəfli münasibətlərin inkişafı istiqamətindəki səylərini yüksək qiymətləndirib və səfirə gələcək diplomatik fəaliyyətində uğurlar arzulayıb.

# Azərbaycan dövlətinin İrpendəki akademik Zərifə Əliyeva adına liseyə növbəti yardımı çatdırılıb

**Azərbaycan dövləti Ukraynanın İrpen şəhərindəki akademik Zərifə Əliyeva adına humanitar "Linqvist" liseyinə növbəti humanitar yardımını göndərib.**




AZƏRTAC xəbər verir ki, humanitar yardım orta məktəbin maddi-texniki imkanlarını daha da yaxşılaşdırmaq məqsədi daşıyır. Yardıma noutbuk dəstləri daxildir.

Humanitar yardımın məktəbə çatdırılması mərasimində iştirak edən Azərbaycanın Ukraynadakı səfiri Seymur Mərdəliyev bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə dövlətimiz müharibə dönəmində Ukraynaya humanitar yardımlarını davam etdirir.

"Prezident İlham Əliyev bu günlərdə Şuşada keçirilən Qlobal Media Forumunda qeyd etdi ki, bu günədək Azərbaycan Ukrayna xalqına qırx milyon avroya yaxın humanitar və maliyyə yardımı edib. Ukraynada bir neçə, xüsusilə İrpen şəhərində sosial infrastrukturun bərpasını həyata keçirib. Bu dəstək davam edəcək", - deyə Seymur Mərdəliyev əlavə edib.

Göstərilən dəstəyə görə dövlətimizin başçısına və xalqımıza təşəkkürünü bildirən məktəbin direktoru Valentina Antonenko qeyd edib ki, Prezident İlham Əliyev 2300 şagirdin təhsil aldığı məktəbə ikinci həyat verib. Bu gün göstərilən növbəti yardım məktəbin maddi-texniki imkanlarını daha da yaxşılaşdıracaq.

"Azərbaycan dövləti orta məktəbin inkişafı üçün dəstəyini əsirgəmir. Azərbaycanın Ukraynadakı səfirliyi də bu işdə fəallıq göstərir. Bu, səmimi dostluq münasibətlərimizin nəticəsidir. Mənim üçün Azərbaycan və azərbaycanlılar əbədi dostlardır", - deyə Valentina Antonenko əlavə edib.

# Siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib

**İyulun 25-də Özbəkistanın paytaxtı Daşkənd şəhərində Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, məsləhətləşmələr zamanı Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Samir Şərifov, Özbəkistan nümayəndə heyətinə isə xarici işlər nazirinin müavini Bobur Usmanov rəhbərlik ediblər. Siyasi məsləhətləşmələr zamanı ölkələr arasında siyasi, iqtisadi, nəqliyyat, mədəniyyət, humanitar və digər qarşılıqlı maraq kəsb edən sahələr üzrə məsələlər müzakirə olunub, eləcə də beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

Ümumi tarixi köklərə, dilə, dinə və adət-ənənələrə malik iki qardaş ölkə arasında münasibətlərin son dövrdə yüksələn xətt üzrə inkişaf etməsinin dövlət başçılarının möhkəm siyasi iradəsi və birgə praktiki səyləri ilə mümkün olduğu xüsusi vurğulanıb.

Qarşılıqlı etimad və hörmət prinsiplərinə əsaslanan strateji tərəfdaşlıq münasibətlərinin səviyyəsindən məmnunluq ifadə edilib, ali və yüksək səviyyədə artan təmasların ikitərəfli münasibətlərə böyük töhfə verdiyi qeyd olunub. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsinin ölkənin beynəlxalq aləmdə artan nüfuzunun göstəricisi olduğu diqqətə çatdırılıb.

Siyasi məsləhətləşmələr çərçivəsində Azərbaycan ilə Özbəkistan arasında müqavilə-hüquq bazası və baxılmaqda olan layihələr ətrafında fikir mübadiləsi aparılıb, eləcə də iki ölkə arasında imzalanmış sənədlərin inventarizasiyası həyata keçirilib.

2ND SHUSHA GLOBAL MEDIA FORUM

# II Şuşa Qlobal Media Forumu



## Şuşa siyasi diskussiyaların da məkanı olub

**Çox qürurvericidir ki, 44 günlük Vətən müharibəsinin 42-ci günü - 8 noyabr 2020-ci ildə 28 illik erməni işğalından azad olunmuş Qarabağın incisi, musiqi beşiyimiz Şuşa artıq beynəlxalq tədbirlərə evsahibliyi edir.**

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında zabit və əsgərlərimizin qəhrəmanlığı sayəsində azad olunmuş Şuşa şəhəri bu gün təkcə ölkəmizin deyil, bütövlükdə Türk-İslam dünyasının mərkəzinə çevrilib. Bu baxımdan Şuşada keçirilən beynəlxalq tədbirlər həm mədəniyyət paytaxtımızın, həm də ölkəmizin dünyada tanınmasında olduqca əhəmiyyətli rol oynayır. Sevindiricidir ki, uzun illərdən bəri hər birimizin əlçatmaz arzusuna çevrilmiş Şuşa bu gün bütün dünya üçün beynəlxalqsəviyyəli tədbirlərin, siyasi diskussiyaların məkanı olub. Bu gözəl diyarda keçirilən bütün tədbirlər sülhə, əmin-amanlığa əvəzsiz töhfələr verir.

İyulun 20-22-də Şuşada keçirilən "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda II Şuşa Qlobal Media Forumu da belə əhəmiyyətli tədbirlərdən biri idi. Şuşa Qlobal Media Forumu mətbuat tariximizdə böyük tarixi hadisədir. Foruma 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyinin, 3 beynəlxalq təşkilatın və 82 media qurumunun nümayəndələrinin qatılması tədbirin tariximiz, cəmiyyətimiz və gələcəyimiz üçün böyük əhəmiyyətə malik olduğunu bir daha dünyaya göstərdi. Demək olar ki, forum iştirakçıları üçün həm də birgə müzakirə platforması rolunu oynadı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin forumun açılış mərasimindəki çıxışı, iştirakçıların çoxlu sayda suallarının ətraflı cavablandırması dünya ictimaiyyətində və mediasında böyük maraq doğurmuş və geniş işıqlandırılmışdır. Çünki burada müzakirə olunan mövzular bəşəri xarakter daşıyırdı.

Moderator Rebekka Maklaflin-İsthamın yalan məlumatların ifşası və dezinformasiyaya qarşı mübarizə mövzusunda verdiyi sualı cavablandıran Prezident İlham Əliyev demişidir: "Təəssüflər olsun ki, bu gün dünyada baş verənlər məhz bu mövzunun bir növ qurbanına çevrilibdir. Təəssüf ki, bu bizim artıq həyat tərzimizin bir hissəsinə çevrilibdir. Bəzən biz təəccüblənirik ki, Azərbaycan haqqında beynəlxalq mediada yayılan məlumatlar həqiqətə uyğun olmur - yəni faktların manipulyasiyası, yanlış narrativlər. Biz uzun illər ərzində bunun qurbanı olmuşuq, əlbəttə ki, onlardan biri Ermənistan və Azərbaycan arasındakı münaqişə idi və bütün erməni diasporunun səfərbər olması idi. Ermənipərəst siyasətçilər, media nümayəndələri Azərbaycana qarşı hücum edirdilər, Azərbaycan haqqında yanlış narrativlər yayırdılar və Azərbaycanı reallıqdan çox uzaq olan bir şəkildə təqdim edirdilər. Mən xatırlayıram ki, müxtəlif xarici qonaqlarla görüşlərimdə, səmimi söhbətlərdə, mütləq hallarda mənə ötürülən mesaj olur ki, biz Azərbaycanın bu dərəcədə inkişaf etmiş ölkə olduğunu gözləmirdik və ona görə də bu narrativlər çox zərərvericidir. Bu, təkcə ölkənin nüfuzunu ləkələmir. Bu, ölkənin biznes potensialını, sərmayə imkanlarını azaldır. Bu, beynəlxalq ictimaiyyətin əsas məsələlərdən diqqətini yayındırır və tamamilə qeyri-realist ssenarilər üzərinə yönəldir. Biz etnik təmizləmənin qurbanı olmuşuq, işğalın qurbanı olmuşuq. Bu hal 30 il davam edib. Ancaq bizi dünyada təcavüzkar kimi təqdim edirdilər və medianın bu məsələni işıqlandırması, siyasi motivlərə söykənən mesajlar və qərarlar nəticəsində biz beynəlxalq sanksiyalara məruz qaldıq. ABŞ 1992-ci ildə Azərbaycana qarşı sanksiyalar tətbiq edibdir. Biz işğalın və təcavüzün qurbanı olmuşuq və o zaman konqresin ermənipərəst nümayəndələrinin səyləri nəticəsində bizə qarşı sanksiyalar tətbiq edildi. Yəni bu, absurd bir vəziyyətdir ki, humanitar böhrana məruz qalan, bir milyon qaçqını olan, işğal edilmiş əraziləri tamamilə dağıdılan bir ölkə sanksiyalara məruz qalmışdır. O zaman bizim beynəlxalq media şəbəkələrinə o qədər də çıxış imkanımız yox idi. Biz müstəqilliyini yeni bərpa etmiş ölkə idik və biz ciddi səylər göstərməli idik. Bizə elə gəlirdi ki, mesajımızı çatdıra bilmirik. Biz özümüzü günahlandırırdıq, resurslarımızı səfərbər edirdik, beynəlxalq ictimaiyyəti maarifləndirirdik. Daha sonra biz dərk etdik ki, bir çox insanlar, müxtəlif fərdlər bizim mesajları eşitmək istəmir, onlar vəziyyəti tamamilə fərqli şəkildə təqdim etmək istəyir..."

Forumda müzakirə üçün belə bir mövzunun seçilməsi həm iştirakçılar, həm də tamaşaçılar tərəfindən maraqla qarşılandı. Çünki bu mövzu həm ölkəmizin qarşılaşdığı, həm də bütövlükdə, dünyanın üzləşdiyi reallıqları özündə əks etdirirdi. Elə reallıqlar ki, onların ədalətsizlik dalğası bəşəri dəyər və prinsipləri də zədələyir. Bu gün yalan və dezinformasiyalar təkcə bizi deyil, ümumən bütün dünyanı düşündürür və narahat edir. Deməli, mövzunun II Şuşa Qlobal Media Forumu müstəvisinə çıxması dünyəvi, bəşəri mahiyyət daşıyır.

22 iyul Milli Mətbuat Gününə həsr olunmuş II Şuşa Qlobal Media Forumu dünyanı düşündürən mövzunu müzakirəyə çıxarmaqla bəşəriyyətə töhfə verdi, çox əhəmiyyətli iş gördü. Bu, həm də dövlət başçımızın mətbuatımıza, mətbuat tariximizə yüksək diqqətinin daha bir göstəricisi olduğunu təsduq etdi. Onu da xüsisilə qeyd etmək yerinə düşər ki, Şuşada keçirilən bu forum dünya mediasını narahat edən məsələlərin müzakirəsi ilə yadda qalacaq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 20-də "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda II Şuşa Qlobal Media Forumunun açılış mərasimində çıxışı zamanı səsləndirdiyi fikirlər, dünyanın müxtəlif ölkələrində jurnalistlərin, beynəlxalq ekspert və politoloqların suallarına verdiyi ətraflı cavablar dünya mediasının diqqət mərkəzində oldu. Forum dünya mətbuatında geniş işıqlandırıldı.

Dövlətimizin başçısı forumda dünya mediasının, informasiya işinə məsul qütblərin Azərbaycanda və regionda baş verən hadisələri obyektiv şəkildə işıqlandırmalarının vacibliyindən ətraflı söz açıb. Ölkəmizin dezinformasiyalara və yalanlara qarşı gələcəkdə də biganə qalmayacağını vurğulayıb.

"Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusundakı II Şuşa Qlobal Media Forumu Azərbaycanın dünyanın qarşılaşdığı ədalətsizliklərə biganə qalmadığını bir daha beynəlxalq aləmə göstərdi. Təbiidir ki, bu da sözümüzün kəsəri, fikrimizin əzminin təntənəsi deməkdir.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*

## İnformasiya diplomatiyasında ciddi uğur

### Şuşa Qlobal Forumu dezinformasiyaya qarşı mübarizədə mühüm platformaya çevrilir

**"Beynəlxalq aləmdə saxta xəbərlərin bilərəkdən və ya bilməyərəkdən geniş şəkildə yayılması, eləcə də belə məlumatların müxtəlif ictimai proseslərə mənfi təsiri son illərdə xüsusilə izlənməkdədir. Dünyada baş verən geosiyasi proseslər fonunda "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda keçirilən II Şuşa Qlobal Media Forumu Azərbaycanın informasiya diplomatiyası istiqamətində ciddi uğurudur".**



Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasnda bildirib ki, dövlət başçısının Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində müəyyən etdiyi düzgün strategiya öz effektini verir. II Şuşa Qlobal Media Forumunda 50-yə yaxın ölkədən 150-dən çox xarici qonağın, o cümlədən 30-a yaxın ölkənin informasiya agentliyi, 3 beynəlxalq təşkilat və 82 media qurumunun iştirakı baş verən hadisələr barədə daha dolğun məlumatların əldə edilməsinə yol açdı. Forumda Prezident İlham Əliyev xüsusilə qeyd etdi ki, absurd bir vəziyyətdir ki, humanitar böhrana məruz qalan, bir milyon qaçqını olan, işğal edilmiş əraziləri tamamilə dağıdılan bir ölkə sanksiyalara məruz qalıb. Azərbaycan uzun illər dezinformasiyadan əziyyət çəkən, haqq səsi eşidilməyən tərəf kimi mübarizə aparmalı olduğundan bu gün oxşar situasiyalarda olan dövlətlərin yanında yer alaraq onlara dost dəstəyi göstərməyə davam edir. Dövlətimiz kiçik ada dövlətləri ilə əməkdaşlıq edərək, bu ölkələrin inkişafına dəstək olmaq üçün müxtəlif iqtisadi və maliyyə yardımları göstərir.

"Prezident İlham Əliyev forumdakı çıxışında dünyanın ikili standartlara əsaslanan siyasətindən bəhs edərək bildirdi ki, biz bəzən açıq, ictimai şəkildə, bəzən də pərdəarxası mesajlarımızı veririk ki, Azərbaycanın maraqları Cənubi Qafqazda təmin edilməlidir: "Kimsə bizim maraqlarımızı görməzdən gəlməyə çalışsa, əlbəttə ki, onlar yanılacaqlar və uğursuzluğa düçar olacaqlar. Biz əlbəttə ki, ABŞ-də prezident seçkilərinin nəticələrindən asılı olmayaraq, mən səmimi deyirəm ki, anti-Azərbaycan fəaliyyətin bir hissəsi prezident seçkisi ilə bağlıdır. Onlar ermənilərin səslərini qazanmaq istəyirlər. Ona görə də, zənnimcə, məqsəd məhz, elə bundan ibarət idi. Mən tamamilə obyektiv olmağa çalışıram. Ümid edirəm ki, seçkidən sonra ABŞ-də və Avropada Azərbaycan haqqında, bizim potensialımız, rolumuz haqqında daha yaxşı anlayış olsun. Yəni biz şou qurmuruq, öyünmürük. Biz bilirik potensialımız nədən ibarətdir və bunu bizimlə əməkdaşlıq edən hər kəs bilir. Bu potensialdan xoş niyyət, xoş məram, konsolidasiya, tərəfdaşlıq üçün istifadə edilməlidir və biz demonizasiya qurbanı olmamalıyıq".

K.Bayramov qeyd edib ki, Azərbaycanın təşəbbüsü, Birləşmiş Ərəb Əmirlikləri və Braziliyanın dəstəyi ilə "Troyka"nın təsis edilməsi ideyası da günümüzün beynəlxalqsəviyyəli ən mühüm mütərəqqi yeniliklərindəndir. Bu platforma, iqtisadi-siyasi əməkdaşlığı gücləndirmək üçün bir vasitə kimi nəzərdə tutulur və Azərbaycanın beynəlxalq təşkilatlarda fəal iştirakının göstəricisidir. Ölkəmizin xarici siyasəti çərçivəsində ətraf mühitin qorunması və karbon tullantılarının azaldılması da mühüm yer tutur. Böyük ölkələrə bu sahədə məsuliyyətlərini yerinə yetirmək üçün çağırışlar edir və qlobal miqyasda ekoloji problemlərin həllində fəal iştirak edir. Azərbaycanın bu sahədəki təşəbbüsləri və səyləri beynəlxalq səviyyədə yüksək dəyərləndirilir.

Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanın coğrafi baxımdan eyni region olaraq "yaşıl enerji" zonası elan edildiyini xatırladan deputat vurğulayıb ki, bu bölgələr günəş-elektrik enerjisi baxımından böyük potensiala malikdir. "Yaşıl enerji" zonaları olaraq elan edilməsi, ərazilərin iqtisadi inkişafı və ətraf mühitin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın bu sahədəki təşəbbüsləri, ölkənin enerjidə özünü təmin etməsi və ekoloji cəhətdən təmiz enerji mənbələrinə keçidinə böyük töhfə verəcək. Bütün bu görülən tədbirlər COP29-a hazırlıq kontekstində Azərbaycanın bu sahədəki inkişafını və xüsusi əhəmiyyət kəsb edən planlarını bir daha göstərir. Bu gün əminliklə qeyd edə bilərik ki, ölkəmiz bu mühüm qlobal konfransa evsahibliyi etməklə beynəlxalq aləmdə nüfuzunu daha da artıracaq, ekoloji gündəliyə sadiqliyini bir daha nümayiş etdirəcək.

K.Bayramov bildirib ki, ölkəmizin xarici siyasəti, beynəlxalq arenada mövqeyinin gücləndirilməsi, iqtisadi inkişafının təmin edilməsi və regional təhlükəsizliyin qorunması istiqamətində fəal və çoxşaxəli strategiyaya əsaslanır: "Ölkəmiz enerji resurslarının səmərəli istifadəsi və qlobal bazarlara çıxışının təmin edilməsi ilə yanaşı, regional və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə xüsusi diqqət yetirir. Eyni zamanda Azərbaycanın beynəlxalq təşkilatlarda fəal iştirakı və digər ölkələrlə strateji tərəfdaşlıq əlaqələri qurması qlobal siyasətdə rolunu artırır. Azərbaycanın təşəbbüsləri və həyata keçirdiyi layihələr, onun beynəlxalq arenada nüfuzunun artmasına və dünya miqyasında tanınmasına səbəb olur".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## Vatikan qəzeti Azərbaycan ərazisindəki Qafqaz Albaniyası xristian memarlığından yazıb

**Müqəddəs Taxt-Tacın yeganə rəsmi mətbuat orqanı olan "L'Osservatore Romano" qəzetində "Xristianlığın köklərində. Azərbaycanda Alban Apostol Kilsəsinin izində. Qədim Qafqaz Albaniyasına səyahət" sərlövhəli məqalə dərc edilib.**

AZƏRTAC xəbər verir ki, ölkəmizə səfər edən qəzetin jurnalisti Rossella Fabiani məqaləsində Azərbaycanda xristianlıq, qədim alban irsi, ölkəmizdə yaşayan dini icmaların vəziyyəti, eləcə də tarixi faktlara və həqiqətlərə geniş yer ayırıb. Yazıda 1836-cı ildə çar I Nikolayın Alban kilsəsini ləğv edib Erməni Qriqorian kilsəsinə tabe etmək qərarına gəldiyi diqqətə çatdırılıb.

Məqalədə Qafqazda Alban Apostol Kilsəsinin yaranmasının eramızın IV əsrinə təsadüf etdiyi bildirilir. Vurğulanır ki, qədim Qafqaz Albaniyası şimalda dağlardan cənubda Araz çayına, şərqdə Xəzər dənizindən qərbdə Gürcüstan (o zaman İberiya) sərhədlərinə qədər uzanırdı. Bu gün onun ərazisində udi icması sayəsində hazırda da mövcud olan bu qədim kilsənin izlərini aşkarlamaq üçün üç min kilometrə yaxın məsafə qət etdiyimiz Azərbaycan yerləşir. Qafqaz Albaniyası dünyada həvari Faddeyin şagirdi vaiz Yeliseyin yaydığı xristian dinini qəbul edən ilk ölkələrdən biri olub. Qüdsün ilk patriarxı Müqəddəs Yaqub tərəfindən Qafqaza göndərilən Yelisey onun öz sözləri ilə desək, Faddeyin ona nəql etdiyi kimi, İsanın həyatından ilhamlanaraq Qafqazda Şərq ayinli qədim Alban Apostol Kilsəsinin "toxumlarını" səpib.

Qeyd olunur ki, Yeliseyin səyahəti uzun çəkib. O, Qüdsdən yola çıxıb, bir neçə ölkə keçərək müxtəlif dillər və tayfaların töhfəsi ilə çoxəsrlik tarix formalaşdıran, plüralist, multietnik və multikultural kimlik ərsəyə gətirən diyar olan Şəki rayonundakı Kiş kəndinə gəlib və burada Qafqaz Albaniyasının ilk kilsəsini qurub. Yazılı mənbələr və maddi mədəniyyət nümunələri I əsrdən başlayaraq burada dominant etnik qrup albanlar olmaqla, 26 tayfadan ibarət böyük bir mozaikanın mövcud olduğunu sübut edir. Bunlara gellər, leqlər, udilər (albanların birbaşa varisləri hesab olunurlar), qarqarlar, çilblər, silvlər, lupenlər, sovdelər və kaspilər daxildir. Müxtəlif mədəniyyətlərə və dinlərə malik icmalara evsahibliyi etdiyi bilinsə də, Azərbaycanın indi süqut etmiş hesab olunmasına baxmayaraq, kilsənin və icmasının hələ də var olduğu Qafqaz Albaniyası adı ilə tanınan böyük bir krallığın mərkəzində yaradılan Şərq ayinli Alban Apostol Kilsəsinin beşiyi olduğu az məlumdur. 1937-ci ildə gürcü dilçisi İliya Abuladze erməni əlyazmasını araşdırarkən bir sıra qeyri-adi əlifbalar aşkar edənədək bu sivilizasiya və kilsənin mövcudluğu uzun müddət məlum olmayıb. 1947-ci ildə Azərbaycanın Mingəçevir şəhərində böyük bəndin tikintisi zamanı erməni əlyazmasında tapılanlarla eyni olan yeni yazılar aşkar edilib. Bir neçə il sonra - 1952-ci ildə əvvəlkilərlə eyni əlifbadan ibarət yeni əlyazma tapılıb. 1975-ci ilin mayında Misirin Sinay dağındakı Müqəddəs Yekaterina monastırında bir sıra yerləri məhv edən yanğından sonra çökmüş döşəmənin altında salamat qalan bir məkan ortaya çıxıb. Orada XVIII əsrdən bəri 140-ı gürcü mənşəli olmaqla, 1100 əlyazma saxlanılırmış. Onlardan ikisi həlledici rolu ilə fərqlənirdi: N Sina 13 və 55, perqament üzərində yazılmış kodekslər. X əsrə aid olan iki əlyazma bütövlükdə hər birində sözlər arasında boşluq qoyulmadan iki sütunda düzülmüş alban dilində mətndən ibarət palimpsestlər idi (əsl mətnin yenisi ilə əvəz olunması üçün istifadə olunan material). İki palimpsestin yazısını Matenadaran əlifbası MS, 7117 və Azərbaycanda 1947-ci və 1952-ci illərdə aşkarlanmış qəbir daşı yazıları ilə müqayisə etdikdən sonra alman alimləri Jost Gippert və Volfgang Schulze belə qənaətə gəliblər ki, iki gürcü əlyazması N Sina 13 və 55 alban dilində tərtib olunub və günümüzə gəlib çatmamış əlyazmanın bir hissəsi olub. Lakin hər şeydən əvvəl Sinay palimpsestləri albanların liturgik dili ilə udilərin müasir dili arasında davamlılığı sübut edirdi.

Məqalədə eyni zamanda bildirilir ki, bu tapıntılar əsasında Qafqaz Albaniyasında ilk kilsələrin I əsrə aid olduğunu iddia edən orta əsr yazılı mənbələrinin haqlı olduğunu söyləmək mümkündür. Bu xüsusda Musa Kalankatuklunun (VII əsr) "Albaniya tarixi" kitabında yazdığı fikirlər əvəzsizdir: "Qüdsdə Yelisey İsanın qardaşı, Yerusəlimin birinci patriarxı olan Müqəddəs Yaqub tərəfindən təyin edilib. Yelisey Şərqi bir hədiyyə olaraq qəbul edib. Azərbaycanın şimalında yerləşən Quis (Kiş) kəndinə gəlib, burada kilsə təsis edib, qurban kəsib. Bu yer kilsələrimizin ilkin mənbəyi, qədim paytaxtların əsası və əzəmət məkanının başlanğıcıdır". Lakin yalnız IV əsrin ortalarında (313-cü ildə Milan Fərmanından sonra) Alban kralları rəsmi olaraq xristianlığı qəbul edib və Qafqaz Albaniyasının ilk paytaxtı Qəbələdə yerli pul zərb etməyə başlayıb. Bu, IV əsrdən VII əsrə qədər davam edən xristian memarlığının inkişafının ikinci mərhələsinin başlanğıcı idi. Beləliklə, xristianlıq çoxtayfalı Alban dövlətinin birləşməsində mühüm amilə çevrilib. Qədim inanclara aid abidələrin yerləşdiyi məkanlar bazilikaların və kilsələrin tikintisi üçün bünövrə rolunu oynayıb. XII əsrdə isə Alban kilsəsi intibah dövrünü yaşayıb. Bu dövrdə yeni kilsələr tikilib, ən qədimləri bərpa edilib, yeni memarlıq nümunələri yaradılıb. Buna misal olaraq 1204-cü ildə tikilən və Kəlbəcər rayonunda yerləşən Xatirəvəng monastırını, eləcə də 1214-cü ildə inşa olunan və UNESCO tərəfindən ümumdünya əhəmiyyətli abidə kimi qeydə alınan Xudavəng monastırını göstərmək olar. Bundan əlavə, Ağdərə rayonunda yerləşən və əsası 1216-cı ildə qoyulmuş Gəncəsər monastırı. Onun epiqraflarından birində "Alban patriarxının göstərişi ilə albanlar üçün tikilib" yazılıb. Bu, çar I Nikolayın Alban kilsəsini ləğv edib erməni Qriqorian kilsəsinə tabe etmək qərarına gəldiyi 1836-cı ilə qədər müstəqil qalan Alban knyazlığının mənəvi mərkəzi olan monastırdır.

Vurğulanır ki, 1828-ci ildə Osmanlı və Fars imperiyalarından gələn ermənilərin Qarabağ, İrəvan və Naxçıvan xanlıqlarının ərazilərinə köçürülməsini nəzərdə tutan Türkmənçay müqaviləsinin imzalanması ilə artıq yavaş-yavaş alban kilsəsinin tənəzzülü baş verib. Bundan sonra Qafqaz Albaniyasının irsinin qreqorianlaşdırılması prosesi başlayıb. Lakin 1918-1919-cu illərdə Qarabağda apardığı arxeoloji ekspedisiya zamanı sovet Ermənistanı Elmlər Akademiyasının prezidenti, şərqşünas Cozef Orbeli Qarabağın kilsə və monastırlarının, xüsusən də Gəncəsərin divarlarında həkk olunmuş mindən çox epiqrafı tədqiq və təsvir edib. Erməni arxeoloqu "Gəncəsar və Havotsptuk kitabələri" kitabında dərc etdirdiyi tədqiqatın nəticələrinə əsasən belə nəticəyə gəlib ki, mədəni memarlıq irsi ümumdünya irsinin, xüsusən də xristian irsinin ayrılmaz hissəsi olan Qafqaz Alban Kilsəsinin irsidir.

"Azərbaycana səfər onu daha yaxından tanımaq üçün, sadəcə, başlanğıcdır", - deyə jurnalist Rossella Fabiani məqaləsində vurğulayıb.

Qeyd edək ki, bu, jurnalistin ölkəmizə səfərinə dair yazdığı silsilə məqalələrin birincisidir.



# 31 köç, 807 ailə, 3057 nəfər...

## Qarabağ və Şərqi Zəngəzura qayıdış sürətlə davam edir

**Qarabağ və Şərqi Zəngəzurda həyat yenidən qaynayır. 30 ildən sonra bu torpaqlarda yaşanan tikinti bumu getdikcə daha da geniş vüsət alır.**









Əzmi, qətiyyəti, hərbi və siyasi iradəsi ilə torpaqlarımızı azadlığına qovuşduran Müzəffər Ali Baş Komandan İlham Əliyev düşmənin viran qoyduğu Qarabağ və Şərqi Zəngəzuru cənnətməkana çevirir və əzəli sahiblərinə qovuşdurur.

`Tarixi Zəfər nəticəsində əldə etdiyimiz yeni dövrün reallıqları həm Böyük qayıdışı sürətləndirir, həm də Azərbaycanı dünyaya əsl qurucu dövlət kimi tanıdır.

### Uğur salnaməsinə yazılan möhtəşəm səhifələr

Suverenliyini tam təmin etmiş Azərbaycanın son üç il yarımlıq qısa zaman kəsiyində əldə etdiyi qələbələrin, uğurların sayını, miqyasını cild-cild kitablara belə sığdırmaq mümkün deyil. Ölkəmizin uğur salnaməsinə yazılan möhtəşəm səhifələrdən biri isə bu müddətdə Qarabağ və Şərqi Zəngəzurda aparılan geniş quruculuq və Böyük qayıdış zəfərləridir.

Azərbaycan dövləti tərəfindən bu torpaqlarda dünyada bənzərinə rastlanmayan tikinti-quruculuq işləri aparılır, meqalayihələr gerçəkləşdirilir, digər tərəfdən isə onilliklər boyu yurdlarına həsrət qalan, vətəndə qəribçilik çəkən keçmiş məcburi köçkünlərimiz ay-ulduzlu, üçrəngli bayraqlarımızın bəzədiyi qayıdış köçləri ilə dədə-baba ocaqlarına dönürlər, sevinc içərisində yenidən bu torpaqlarda xoşbəxt yaşama başlayırlar...

Gün keçdikcə Qarabağ və Şərqi Zəngəzur sakinlərinin qovuşduqları yurdlarının da sayı artır...

Zəngilanın Ağalı, Tərtərin Talış, Laçının Sus, Zabux kəndlərinə, Şuşa, Laçın, Füzuli şəhərlərinə artıq xeyli qayıdış karvanları yola salınıb.

Bu il Müstəqillik Günündə Xocalı şəhəri də bu yurdların siyahısına qoşuldu. Bir zamanlar min-bir zülmlərdən keçərək, faciələrə tuş gələrək Xocalıdan didərgin düşən sakinlər yenidən şükranlıqla doğma diyarlarına qayıtdılar.

"Keçən il Müstəqillik Günündə mən Laçın şəhərində laçınlılara evlərinin açarlarını təqdim etmişdim. İki il bundan əvvəl Müstəqillik Günü ərəfəsində - mayın 27-də Ağalı sakinləri ilə görüşmüşdüm. Onlar da məhz o gündə köçmüşdülər. Bu gün isə xocalılılar qayıdırlar. Bu, gözəl tarixi hadisədir. Xocalı da gördüyünüz kimi, gözəlləşir, yenidən qurulur", - deyə, Xocalı sakinləri ilə görüşündə Prezident İlham Əliyevin də vurğuladığı kimi, keçmiş məcburi köçkünlərin Müstəqillik Günündə qayıdışlarının həyata keçirilməsinin də öz fəxrli mənası var.

Təsadüfi deyildi ki, Prezident İlham Əliyev quruculuğun ilk təməl daşını 2021-ci ilin 28 may tarixində Ağdamda qoymuş, düşmənin daşı daş üstündə qoymadığı, yerlə yeksan etdiyi, görənlərin dəhşətlə "Qafqazın Xirosiması" adlandırdığı Ağdama yenidən həyat veriləcəyinin - Qarabağın ruhunun dirçələcəyinin xoş ismarışını çatdırmışdı.

O da diqqətçəkən xüsusi məqamdır ki, Prezident İlham Əliyev məhz 2020-ci il mayın 28-də Bakının Qaradağ rayonunda "Qobu Park-3" yaşayış kompleksinin açılışı zamanı tezliklə bütün məcburi köçkünlərin öz yurdlarına qayıdacağını, onlara bundan da gözəl evlərin tikiləcəyini qəti inamla bildirmişdi.

Budur, artıq qalib lider İlham Əliyevin həmin sözlərinin uğurla həyata keçirilməsinin əyani şahidliyini edirik.

### "Siz buna layiqsiniz"

Qarabağ və Şərqi Zəngəzurda sürətlə sosial infrastruktur qurulur, xəstəxanalar, məktəblər, idman obyektləri tikilir, yollar, tunel və körpülər inşa edilir, dəmir yolları çəkilir. Müasir "ağıllı kənd və şəhərlər" salınır. Çox qısa zaman ərzində Füzuli və Zəngilan beynəlxalq hava limanlarının tikilərək istifadəyə verilməsi, üçüncü beynəlxalq hava limanının isə Laçında inşasının sürətlə davam etdirilməsi isə ümumilikdə quruculuq işlərinin miqyasını göz önünə gətirir.

Heydər Əliyev Fondu tərəfindən bu ərazilərdəki tarixi, dini, mədəni abidələr yüksək səviyyədə bərpa olunaraq xalqımıza ərmağan edilir.

Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzura etdiyi mütəmadi səfərləri zamanı burada yeni yaşayış məntəqələrinin bünövrələrini qoyur, açılışlar edir, görülən işlərlə yerində tanış olur.

Əzəli yurdlarına qayıdan sakinlərə evlərinin açarlarını təqdim etmək, onları öz doğma mənzillərində ziyarət etmək, qayıdış sevinclərini bölüşmək də qalib lider İlham Əliyevin xoş ənənəsinə çevrilib ki, buna xocalılıların timsalında bir daha fəxrlə şahidlik etdik.

Dövlət başçısı isti od-ocaqlarına qovuşan xocalılılarla görüşündə söylədi ki, burada abad, gözəl evlər, istirahət zonaları tikilir. Xocalının o qədər gözəl təbiəti var ki, burada yaşamaq, yaratmaq hər bir insana xüsusi zövq verəcək: "Siz də buna layiqsiniz. Siz otuz ildən çox müxtəlif yerlərdə yaşamısınız - kimi yataqxanada, kimi uşaq bağçasında, kimi qohumların evində, kimi də qəsəbədə. Bilirsiniz, mən işğal dövründə xocalılılarla dəfələrlə görüşmüşdüm, - Bakıda və digər yerlərdə qəsəbə salınmışdır, - deyirdim ki, gün gələcək sizinlə Xocalıda görüşəcəyik. Bax, bu gün də gəldi".

Bəli, o gün gəldi, xocalılılar da evlərinə döndülər. Tezliklə bu xoşbəxtlik ağdamlılara, kəlbəcərlilərə, qubadlılılara, cəbrayıllılara, xankəndililərə... də qismət olacaq.

### Möhtəşəm statistika

Qeyd edək ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda əksini tapan "İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış" Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair Dövlət Proqramı" qəbul edilib.

Dövlət büdcəmizin əsas prioritetlərindən biri də Böyük qayıdışa nail olunmasıdır. 2020-2022-ci illər ərzində Qarabağ və Şərqi Zəngəzurda gerçəkləşdirilən bərpa-quruculuq işləri ilə əlaqədar dövlət büdcəsindən təqribən 6,6 milyard manat məbləğində vəsait ayrılıb. 2023-cü ilin dövlət büdcəsində Böyük Qayıdış proqramının icrası üçün 5,3 milyard manat yönəldilib. Bu ilin büdcəsində isə Qarabağ və Şərqi Zəngəzurun bərpasına 9,9 milyard manat ayrılıb.

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən kompleks quruculuq işləri tez bir zamanda şəhər və kəndlərimizə qayıdışa da birbaşa rəvac verir. Vətən müharibəsindən cəmi il yarım sonra - 2022-ci il iyulun 19-da Zəngilanın Ağalı kəndinin sakinlərinin qayıdışı ilə başlanğıcı qoyulan Böyük qayıdış hazırda da uğurla davam etdirilir. 2023-cü ilin mart ayında Tərtərin Talış kəndinə, may ayında Laçın şəhərinə, avqust ayında Füzuli şəhərinə və Laçın rayonunun yenidən salınan Zabux kəndinə köç həyata keçirilib. Ötən il ərzində fərqli tarixlərdə bu ərazilərə xeyli qayıdış həyata keçirilib.

2024-cü ildə Böyük qayıdış xüsusilə intensivləşib. Bu ilin yanvar-iyun ayları ərzində Qarabağ və Şərqi Zəngəzura dəfələrlə qayıdış olub, Füzuli, Laçın, Şuşa, Xocalı şəhərlərinə, Laçının Zabux, Sus kəndlərinə 31 köçlə 807 ailə - 3057 nəfər dönüb.

Ümumilikdə, Böyük qayıdış prosesində 1997 ailə, 7762 nəfər dədə-baba yurdlarına qayıdıb. 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 534 ailə (1971 nəfər) Laçın şəhərində, 822 ailə (3132 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 126 ailə (491 nəfər) Şuşa şəhərində, 44 ailə (169 nəfər) Xocalı şəhərində məskunlaşıb.

### Gerçəkləşən möcüzələr

Bütün bu sadalananlar, Azərbaycanın qısa müddətdə həyata keçirdiyi və dünyanı heyrətə gətirən möcüzəli işlərdir.

Xocalıda sakinlərlə görüşü zamanı bu məqamı Prezident İlham Əliyev də vurğuladı: "Səkkiz aya, bu, möcüzədir. Səkkiz aya bax belə quruculuq işləri aparıldı.

...Mən xüsusi tapşırıq vermişdim, antiterror əməliyyatından dərhal sonra dedim ki, birinci növbədə biz Xocalını bərpa etməliyik.

...Mən demişdim ki, biz Qarabağı cənnətə çevirəcəyik. Yavaş-yavaş çeviririk. Xocalı da elə olacaq".

Müstəqillik Günündə Prezident İlham Əliyev Xocalıdan daha bir xoş müjdəni də çatdırdı ki, bu ilin sentyabr ayından artıq Xankəndiyə də köç başlayacaq.

Bir zamanlar erməni separatçılarının at oynatdığı bu yurdumuzdan da düşmənin murdar ayaq izi təmizlənib, bu şəhərimizin də havası, suyu, ruhu paklanıb və doğma sakinlərinin pişvazına hazırlaşır.

2026-cı il, Böyük qayıdışın birinci mərhələsi bitənə qədər Qarabağ və Şərqi Zəngəzurda 140 min nəfərin - 34 min 500 ailənin doğma yurdlarında daimi məskunlaşması təmin ediləcək.

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən hərtərəfli tikinti quruculuq işləri, şəhər və kəndlərimizin bir-bir dirçəldilməsi ondan xəbər verir ki, qarşıda bizi hələ xeyli qayıdış zəfərləri gözləyir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Qərb Cənubi Qafqazda sülh istəmir

## Ermənistanın silahlandırılması regionda sabitliyin pozulmasına yönəlik addımlardır



**"Avropa Sülh Fondu", əslində, özünü "Avropa müharibə fondu"na çevirməyə başlayıb. Rusiya-Ukrayna müharibəsində olduğu kimi, silahlandırma və digər adlar altında bu fond tərəfindən müxtəlif ölkələrə verilən maliyyə yardımlarını araşdıranda onun sülhlə, xeyriyyə ilə bağlı olmadığı, daha çox bir ölkəni digərinin qarşısında gücləndirmək, ona qarşı silahlandırmaq və buna bənzər əməlləri üzə çıxır".**

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Vüqar İskəndərov deyib. Deputat xatırladıb ki, Azərbaycan aprelin 5-də Ermənistan baş naziri, ABŞ dövlət katibi, Avropa Komissiyasının prezidenti arasında keçirilmiş görüşdə nələrin müzakirə olunacağını və olunduğunu dəfələrlə qeyd edib.

Prezident İlham Əliyev də bununla bağlı Azərbaycanın mövqeyini, vacib fikirlərini bildirib. Qərbin hazırda Azərbaycan və Ermənistan arasında mövcud olan kövrək sülh danışıqlarının, münasibətlərin normallaşmağa doğru irəliləməsindən və iki ölkənin vasitəçisiz olaraq müsbət qərarlar verməsindən, bununla bağlı müəyyən nəticələr əldə olunmasından narahatdır. "Odur ki, əsas məqsədi bunlara mane olmaqdır. Bu nümunələrin sayı artdıqca Fransa başda olmaqla Qərb dövlətləri təşvişə düşərək Ermənistana hərbçilər göndərdi, ABŞ dövlət katibinin müavinləri, köməkçiləri, Pentaqonun rəhbər orqanları nümayəndələrinin Ermənistana səfəri müntəzəm xarakter aldı. Bundan sonra rəsmi İrəvanın ritorikasının dəyişdiyinin də şahidi olduq", - deyə o bildirib.

V.İskəndərov qeyd edib ki, "Avropa Sülh Fondu"nun Ermənistana 10 milyon avro ayırması və Ermənistanın son zamanlar maliyyəsini iqtisadiyyatına, gələcək inkişafına deyil, yalnız silahlanmaya yönləndirməsi dediklərimizin bariz nümunəsidir. Yəni bu, sözün əsl mənasında iki ölkə arasında kövrək sülhə xələl gətirilməsidir, eyni zamanda Cənubi Qafqazda sabitliyin bərqərar olmasının əleyhinə atılan addımlardır. Ermənistanı silahlandırmaqla Qərb təbii ki, heç nəyə nail ola bilməyəcək.

Prezident İlham Əliyevin dediyi kimi, Azərbaycan özünə qarşı hər hansı təhdid, revanşist cəhdlərin artdığını görsə, legitim hüququmuzdan istifadə edəcəyik və bizi heç kim saxlaya bilməyəcək, nəinki Paris və ya digər ölkələrdən alınan sınıq-salxaq silahlar da...

Deputat vurğulayıb ki, indiki situasiyada sülhdən dəm vuran Qərb dövlətləri qeyri-konstruktiv fəaliyyətlə məşğuldurlar. Bu isə nə onlara, nə də Ermənistana dividend gətirəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Qərbin məqsədi Ermənistanın çağırışına əsasən bölgəni hərbi nəzarətinə almaqdır

**Beynəlxalq hüququn prinsiplərini kobud şəkildə pozan Fransanın məqsədi Ermənistanı kütləvi silahlandırmaqla iki ölkə arasında gərginliyi artırmaq bölgədə sülhə mane olmaqdır. Ehtimal ki, baş nazir Nikol Paşinyanın "cəsarətli" davranışları həm də son zamanlar bu ölkənin xaricdən silah tədarükünü artırması ilə bağlıdır.**



Fransadan Ermənistana yalnız silahlar deyil, bu silahların tətbiqi, xüsusilə Azərbaycanla sərhəd xəttində döyüş əməliyyatları aparmaq üçün şəxsi heyətə təlimlər keçmək üçün hərbi təlimatçılar da göndərilir. Nəzərə alsaq ki, Ermənistan təkcə Fransadan deyil, Hindistanla da 600 milyon dollarlıq silahlar alınması istiqamətində müqavilə imzalayıb və Ermənistanın indiki vəziyyətində hücum silahlarına milyard dollarlarla vəsait xərcləməsini heç də müdafiə məqsədi üçün hesablanmış addım hesab etmək olmaz.

İyulun 18-də Avropa Siyasi Birliyinin sammiti çərçivəsində keçirdiyi mətbuat konfransında Fransa prezidenti Emmanuel Makron deyib: "Ermənistanın perspektivi sülhdür, Fransanın perspektivi sülhdür və mən ümid edirəm ki, Azərbaycanın da perspektivi sülhdür". Məsələ burasındadır ki, sülhdən danışan Fransa prezidenti sülh danışıqlarını poza biləcək bütün vasitələrdən istifadə edir. Rəsmi Paris Ermənistanı yalnız silahlandırmaqla kifayətlənməyib, nəzarətində saxladıqları yedək təşkilatlar vasitəsi ilə də İrəvana hərbi yardımlarını davam etdirir. Avropa İttifaqı Şurası Avropa Sülh Fondundan (EPF) Ermənistan silahlı qüvvələrinə 10 milyon avro dəyərində yardım paketini qəbul edib. Bu barədə Avropa İttifaqı Şurası məlumat yayıb.

Bildirilir ki, yardımın məqsədi Ermənistan silahlı qüvvələrinin maddi-texniki imkanlarını artırmaq, böhran və fövqəladə hallarda mülki əhalinin müdafiəsinin yaxşılaşdırılmasına töhfə verməkdir. Həmçinin Aİ tərəfindən yerləşdirilən missiya da daxil olmaqla, beynəlxalq hərbi missiya və əməliyyatlarda ölkənin gələcəkdə mümkün iştirakı halında Ermənistanın dayanıqlılığını artırmaq və silahlı qüvvələrinin qarşılıqlı fəaliyyətini sürətləndirmək məqsədi daşıyır. Qərara əsasən, dəstək batalyonölçülü bölmə üçün çadır şəhərciyini təmin edəcək. Avropa İttifaqının Xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Cozep Borrel (Jozep Borrel) qeyd edib ki, təhlükəsizlik Ermənistanla ikitərəfli münasibətlərin getdikcə daha vacib elementidir: "Avropa Sülh Fondunun bu paketi ölkənin dayanıqlılığına daha da töhfə verəcək. Xarici siyasət və təhlükəsizlik siyasəti üzrə dialoqumuzu daha da genişləndirmək, həmçinin Ermənistanın Aİ-nin rəhbərlik etdiyi missiya və əməliyyatlarda gələcək iştirakını nəzərdən keçirməkdə qarşılıqlı marağımız var".

Əlbəttə ki, burada Qərb öz maraqlarını təmin etmək məqsədi güdür. Birmənalı olaraq qeyd edə bilərik ki, bu gün Ermənistana göstərilən hərbi yardımlar regionda sülhə, sabitliyə təhlükə yaradır.

İstər Fransanın, istərsə də Aİ Şurasının Ermənistanı silahlandırması əslində bu ölkəyə yaxşı heç nə vəd etmir. Azərbaycan dəfələrlə öz xəbərdarlığını edib ki, Ermənistanın silahlanmasını ölkəmiz təhlükəli həddə hesab edəcəksə, tədbir görmək məcburiyyətində qalacaq. Elə Fransanın da, bu ölkənin çətiri altında fəaliyyət göstərən Aİ-nin də məqsədi budur ki, regionda yaranan sülh mühiti heçə ensin, öz təhlükəsizliyini qoruya bilməyən Ermənistanın çağrışına əsasən bölgəni hərbi nəzarətləri altına alsınlar.

Rəsmi Paris vəziyyəti ciddi şəkildə dəyişmək üçün son zamanlar maksimum dərəcədə səy göstərir. Hədəf Azərbaycanı Ermənistanla Qərb platforması çərçivəsində danışıqlara sövq etmək, sülh müqaviləsinin mətninə Avropanı razı salacaq şərtlərin daxil edilməsinə nail olmaqdır. Amma Prezident İlham Əliyevin qətiyyətli mövqeyi, "Azərbaycan müstəqil siyasət yürüdür və Azərbaycanın iradəsinə heç bir qüvvə təsir edə bilməz" deməsi Qərbdə təşviş yaradır.

Zəngəzur dəhlizi ilə bağlı məsələlər geopolitik, tranzit və loqistik imkanlar baxımından Qərb üçün xüsüsi əhəmiyyət kəsb edir. Hazırda qlobal güclər arasında dəhlizlərlə bağlı fərqli yanaşmalar region dövlətlərinin də bəlli qlobal layihələrə cəlb olunmasını zəruri etdiyindən Cənubi Qafqaz bu qarşıdurmaların mərkəzində yer almış bölgələrdən biridir.

Fransanın Ermənistanın hava hücumundan müdafiə sistemlərini yeniləməsi, Ermənistanın hərbi arsenalının silah-sursatla təmin edib yenidən formalaşdırmaq istiqamətində atdığı addımlar deməyə əsas verir ki, rəsmi Paris regionda silahlı münaqişənin yenidən alovlanmasını qarşısına məqsəd qoyub. Avropadan gələn təlimatların Ermənistan tərəfindən sözsüz icra olunması və Ermənistanın son davranışları hadisələrin arzuolunmaz istiqamətdə hərəkət edə biləcəyinin proqnozunu verir. Azərbaycan Prezidentinin iradəsi, dövlətimizin gücü və qətiyyəti Cənubi Qafqaz regionunun münaqişə potensialını əhəmiyyətli dərəcədə məhdudlaşdırsa da, Ermənistanı silahlandıran Fransa regionu yenidən münaqişə ocağına çevirməyə cəhd göstərir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# AZƏRBAYCAN HƏQİQƏTLƏRİ SƏYYAHLARIN GÖZÜ İLƏ

## Səyyahlar Şuşada






**Dünya miqyaslı dörd nəhəng səyyah klubundan biri olan - "Most Traveled People" (MTP) səyahət klubunun 35 nəfərlik heyətinin iyulun 25-də Qarabağa və Şərqi Zəngəzura səfəri başlayıb.**

AZƏRTAC xəbər verir ki, beynəlxalq səyahətçilər səfərə Füzulidən başlayıblar.

Səyyahlar Ermənistan silahlı qüvvələrinin Füzulidə törətdikləri vandallığın izlərini müşahidə ediblər.

Sonra səyyahlar Şuşa şəhəri ilə tanış olublar.

Əvvəlcə Şuşa şəhər mərkəzi meydanına gələn səyyahlar Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəllərinə baxıblar. Qonaqlara Şuşa şəhəri, onun işğal dövründəki vəziyyəti və burada həyata keçirilən yenidənqurma işləri barədə məlumat verilib. Bildirilib ki, otuzillik işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.







Səyahətçilər sonra Xurşidbanu Natəvanın evi, Xan qızı bulağı olan ərazi və qala divarları, Yuxarı Gövhər ağa məscidi ilə tanış olublar.

Sonda Cıdır düzünə gələn səyyahlar buradan açılan əsrarəngiz mənzərəni seyr ediblər.

Qeyd edək ki, adı dünyanın ən böyük səyyahları siyahısında ilk onluqda yer alan Çarlz Vilinin (Charles Veley) rəhbərlik etdiyi heyətin səfərinə 13 ölkədən beynəlxalq səyahətçilər qatılıblar. Bu ölkələr sırasında ABŞ, Böyük Britaniya, Almaniya, İsveçrə, Norveç, İsveç, Portuqaliya, Filippin, Polşa, Macarıstan və digərləri də var.

Klubun budəfəki səfəri üç gün davam edəcək. Bu, klubun üzvlərinin işğaldan azad edilmiş ərazilərə dördüncü səfəridir. MTP daha əvvəl Qarabağa və Şərqi Zəngəzura üç dəfə səfər edib. Vətən müharibəsindən ötən dörd il ərzində isə 50-yə yaxın ölkədən 400-dək beynəlxalq səyahətçi böyük qruplarla Qarabağa və Şərqi Zəngəzura 10 dəfə səfər edib. Bugünkü səfər bu qəbildən olan sayca 11-ci səfərdir.

Nəzərə alsaq ki, beynəlxalq səyyahların sosial mediada dünyanın ən müxtəlif bölgələrindən xeyli sayda izləyici ordusu var, belə səfərlər azad edilmiş ərazilərdəki böyük dağıntılar və aparılan nəhəng quruculuq-bərpa işləri ilə yerində tanış olmağa imkan yaratmaqla, reallıqların dünyaya nümayişi üçün müstəsna əhəmiyyət daşıyır.

## Dünyanın 13 ölkəsini təmsil edən səyyahlar Ağdamda erməni vandalizminin şahidi olublar

**Dünyada ən çox tanınmış dörd nəhəng səyyah klubundan biri olan "Most Traveled People" (MTP) səyahət klubunun 35 nəfərlik heyəti Qarabağa və Şərqi Zəngəzura səfəri çərçivəsində iyulun 25-də Ağdama gəliblər. Xarici səyahətçilər Ermənistan silahlı qüvvələrinin Ağdamda törətdiyi vəhşiliklər, eləcə də şəhər işğaldan azad olunandan sonra Azərbaycan dövlətinin həyata keçirdiyi tikinti-quruculuq işləri ilə tanış olublar.**





AZƏRTAC xəbər verir ki, əvvəlcə Ağdam şəhərindəki Şəhidlər xiyabanına gələn səyyahlara burada Birinci Qarabağ müharibəsində şəhid olan qəhrəman Vətən övladlarının, o cümlədən Xocalı soyqırımında qətlə yetirilən dinc sakinlərin bir hissəsinin dəfn edildiyi bildirilib. Qeyd olunub ki, Ağdam şəhərini yerlə yeksan edən erməni vandalları Şəhidlər xiyabanındakı qəbirləri də dağıdıblar.

Xarici səyyahlar sonra Ağdam şəhərinin mərkəzi küçəsində ermənilərin yerlə yeksan etdikləri binaların qalıqlarına da baxıblar. Məlumat verilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdamın yerində indi xarabalıqlar qalıb.

Ağdam şəhər Cümə məscidi ilə tanış olan səyyahlara məlumat verilib ki, 1868-1870-ci illərdə inşa edilmiş məscid də digər tarixi-dini abidələr kimi erməni vandalizminə məruz qalıb. Məscidin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb. Erməni vandalları Ağdam Cümə məscidində mal-qara saxlayıblar. Ağdam şəhəri işğaldan azad edildikdən sonra məscid Azərbaycan dövləti tərəfindən bərpa olunub.



Xarici səyyahlara Ağdamda həyata keçirilən bərpa-tikinti işləri barədə də məlumat verilib.

Qeyd edək ki, adı dünyanın ən böyük səyyahları siyahısında ilk onluqda yer alan Çarlz Vilinin (Charles Veley) rəhbərlik etdiyi heyətin səfərinə 13 ölkədən beynəlxalq səyahətçilər qatılıblar. Bu ölkələr sırasında ABŞ, Böyük Britaniya, Almaniya, İsveçrə, Norveç, İsveç, Portuqaliya, Filippin, Polşa, Macarıstan və digərləri də var.

Bu, klubun üzvlərinin işğaldan azad edilmiş ərazilərə dördüncü səfəridir. MTP daha əvvəl Qarabağa və Şərqi Zəngəzura üç dəfə səfər edib. Vətən müharibəsindən ötən dörd il ərzində isə 50-yə yaxın ölkədən 400-dək beynəlxalq səyahətçi böyük qruplarla Qarabağa və Şərqi Zəngəzura 10 dəfə səfər edib. Bugünkü səfər bu qəbildən olan sayca 11-ci səfərdir.

Nəzərə alsaq ki, beynəlxalq səyyahların sosial mediada dünyanın ən müxtəlif bölgələrindən xeyli sayda izləyici ordusu var, belə səfərlər azad edilmiş ərazilərdəki böyük dağıntılar və aparılan nəhəng quruculuq-bərpa işləri ilə yerində tanış olmağa imkan yaratmaqla, reallıqların dünyaya nümayişi üçün müstəsna əhəmiyyət daşıyır.

## *Filippinli səyyah:* "İşğaldan azad olunmuş ərazilərə səyahət etməklə Azərbaycan haqqında daha çox məlumat əldə edirik"

"Philippine Global Explorers" və dünya miqyaslı dörd nəhəng səyyah klubundan biri olan - "Most Traveled People" (MTP) səyahət klubunun üzvüyəm. Ölkənizə gəldiyim ilk andan etibarən yerli əhali, yeməklər, paytaxt Bakının memarlıq üslubu məndə dərin təəssürat oyatdı".



Bunu iyulun 25-də Qarabağa səfərə başlayan səyahətçilər heyətinin filippinli üzvü Camel Santos AZƏRTAC-a müsahibəsində deyib.

"İşğaldan azad olunmuş ərazilərə səyahət etməklə Azərbaycan haqqında daha çox məlumat əldə edirik. Buradakı vəziyyəti və Azərbaycan hökumətinin səylə həyata keçirdiyi tədbirləri öz gözlərimizlə görmək tamamilə fərqli hisslərdir", - deyə filippinli səyyah vurğulayıb.

## *Çarlz VİLİ:* "Qarabağda sürətli yenidənqurma və bərpa işləri Azərbaycanın əzmini nümayiş etdirir"

"MTP (Most Traveled People) səyahət klubunun təsisçisi olaraq Qarabağa turlar təşkil edirik. Ən çox səyahət edən insanları artıq üç il ərzində dördüncü dəfədir Qarabağa gətiririk. Biz Füzulidə, Ağdamda, Şuşada, Şərqi Zəngəzurda, o cümlədən Laçında həyata keçirilən yenidənqurma işlərinin şahidi olmuşuq. Hər dəfə yenilik, dəyişiklik görmək insanı heyran edir. İnsanlar Qarabağa gəlməkdən böyük zövq alırlar. Düşünürəm ki, bu, gələcəkdə turizmin inkişafı üçün əhəmiyyətli olacaq".

AZƏRTAC xəbər verir ki, bunu iyulun 25-də Qarabağa səfərə başlayan səyahətçilər heyətinin rəhbəri, adı dünyanın ən böyük səyyahları siyahısında ilk onluqda yer alan Çarlz Vili jurnalistlərə açıqlamasında deyib.




Üç il əvvəlki səfərindən sonra xeyli dəyişikliklərin şahidi olduqlarını, eləcə də II Şuşa Qlobal Media Forumunda iştirak etdiyini vurğulayan Çarlz Vili bildirib: "Üç il əvvəl mən Şuşadakı məscidi gördüyüm zaman o dağılmaq üzrə idi. Son üç il ərzində bu məscid bərpa edilib və bu gün biz onu ziyarət edə bilirik. Bu həftə Şuşada beynəlxalq forum keçirildi. Beşulduzlu Şuşa hotelində media forumunda iştirak etdik. Üç il əvvəl burada heç bir gözəl hotel yox idi. Bütün bunların canlı şahidi olmaq, həqiqətən, xoş təsir bağışlayır. Üç il əvvəl xarabalıqların olduğu ərazilərdə əsl şəhər salınıb".

Səfərə Füzuli Beynəlxalq Hava Limanından başladıqlarını xatırladan amerikalı səyyah qeyd edib: "Füzuli şəhəri də üç il əvvəl dağıntılar içində idi. İndi Füzulidə bütün şəhər tamamilə yenidən qurulur. Biz səfərimizə Füzuli Beynəlxalq Hava Limanından başladıq. Füzulidə, Zəngilanda, Laçında hava limanları mövcuddur. Hər il yeni yollar salınır, daha çox minatəmizləmə işləri həyata keçirilir. Burada sürətli yenidənqurma və bərpa işləri görülür və bu, Azərbaycanın əzmini nümayiş etdirir".




# QHGT-nin mənzil-qərargahında Saymon Stil ilə görüş olub

**Qoşulmama Hərəkatı Gənclər Təşkilatının (QHGT) mənzil-qərargahında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil ilə görüş keçirilib.**

AZƏRTAC xəbər verir ki, görüş QHGT-nin mənzil-qərargahı və qərargah daxilində fəaliyyət göstərən Tədqiqat Mərkəzi ilə tanışlıqla başlayıb. Qonağa təşkilatın son dövrlərdə həyata keçirdiyi tədbirlər barədə ətraflı məlumat verilib.

Tədbirdə çıxış edən QHGT-nin sədri, COP29-un İqlim üzrə gənclər çempionu Leyla Həsənova gənclərin iqlim dəyişikliyi ilə bağlı həllərə töhfə verə biləcəyini qeyd edib.

Ardınca COP29-un baş danışıqçısı, Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Yalçın Rəfiyev iqlim dəyişikliyi ilə mübarizədə qlobal əməkdaşlığın gücləndirilməsinin vacibliyini vurğulayıb.

Görüş zamanı Saymon Stil gənclərin iqlim dəyişikliyi ilə mübarizənin fəallaşmasında rolundan bəhs edib, sualları cavablandırıb. O, həmçinin QHGT-nin iqlim dəyişikliklərinə qarşı mübarizədə fəal rolunu yüksək qiymətləndirərək təşkilatın gənclərə dəstək olmaqla, onların səsinə beynəlxalq platformalarda yer verməsinin vacibliyini qeyd edib.

Görüşün sonunda QHGT-nin sədri Leyla Həsənova Saymon Stilə təşkilatın adından xatirə hədiyyəsi təqdim edib.

## Saymon STIL: "Gənclərin səsi çox eşidilərsə, iqlim dəyişmələri ilə mübarizə fəaliyyəti də bir o qədər sürətlənər"



**"Gənclərin iqlim dəyişmələri ilə mübarizənin daha da fəallaşmasında rolu böyükdür. Mən iqlim böhranının qarşısının alınması səlahiyyətinə malik yeganə qlobal hökumətlərarası bir prosesi təmsil edirəm. Bu gün gördüyümüz işlər - bəzi ləng və çox mürəkkəb proseslər bütün dünyanın üzləşdiyi iqlim probleminin qarşısını almağa xidmət edir".**

AZƏRTAC xəbər verir ki, bunu BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil Qoşulmama Hərəkatının Gənclər Təşkilatının mənzil qərargahında keçirilən görüşdə deyib.

"Gənclərimizin enerjisi, yaradıcılığı, ideyaları, prosesə sadiqliyi məni daima heyran edir. Mən açıq şəkildə bildirmişəm ki, katibliyin mandatı çərçivəsində gənclərin prosesə fəal şəkildə qoşulmasını dəstəkləmək üçün lazım olan hər bir şeyi edəcəyəm. Çünki gənclərin səsi də əhəmiyyətlidir. Səsləriniz nə qədər çox eşidilərsə, iqlim dəyişmələri ilə mübarizə fəaliyyəti də bir o qədər sürətlənər", - deyə o bildirib.

Dubayda keçirilən COP28-in böyük gözləntilər yaratdığını deyən S.Stil 2030-cu ilə qədər həmin gözləntilərin müəyyən hissəsinin həyata keçirildiyini görmək istədiklərini qeyd edib. Bildirilib ki, Bakıda keçiriləcək COP29-da proses irəliyə doğru aparılmalıdır: "İqlim maliyyəsi COP29-un əsas mövzusudur və Azərbaycanın sədrliyindən bunu dəstəkləmək və asanlaşdırmaq, 198 ölkənin yeni maliyyə hədəfinin necə olması ilə bağlı razılığa gəlməsi tələb olunur. Həmçinin bu il nəyin işlənib hazırlanacağı və gələn il Braziliyada nələrin təqdim ediləcəyi iqlim planlarının yeni mərhələsidir. Bütün bu planlara milli səviyyədə müəyyən edilmiş tədbirlər də daxildir. Emissiyaları 2030-cu ilə qədər iki dəfə, yəni 43 faiz, 2035-ci ilə qədər isə 60 faiz azaltmalıyıq. COP28, COP29 və COP30 bir araya gələrək harada olduğumuzu müəyyənləşdirməyi, istiqamətin düzəldilməsini və bu iddialı, lakin zəruri hədəflərə çatmağı tələb edir. Tərəflərin hər birinin, COP sədrliyinin və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi olaraq bizim də öz məsuliyyətimiz mövcuddur".

# Həm Azərbaycana, həm də BƏƏ-yə məmnunluq bəxş edən tərəfdaşlıq

## Prezident İlham ƏLİYEV: "Masdar" "yaşıl enerji"yə keçid sahəsində ən öndə gedən şirkətdir"

**Ölkəmiz dünyada etibarlı tərəfdaş imici qazanıb. Neft-qaz sahəsində də uzun müddətdir tərəfdaşlıq etdiyimiz onlarla şirkət var. İndi onların sayı "yaşıl enerji" layihələrindəki birgə iş sayəsində daha da artır. Bərpaolunan enerji hədəflərimizi bir sıra dünyaşöhrətli şirkətlərlə reallaşdırırıq ki, bunlardan biri də "Masdar"dır.**



Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) bu şirkəti ilə tərəfdaşlığın tarixi qısa olsa da, görülən işlər hər iki tərəfə yalnız məmnunluq gətirir. Belə ki, keçən il oktyabrın 26-da şirkətin tikdiyi 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası işə salındı. Obyektin təməlqoyma mərasimi isə 2022-ci il martın 15-də Prezident İlham Əliyevin iştirakı ilə keçirilmişdi. Prezident stansiyanın açılışında da iştirak etdi.

"Qaradağ" Xəzər regionunda və MDB məkanında ən böyük günəş-elektrik stansiyasıdır. Stansiya 262 milyon dollar dəyərində xarici sərmayə hesabına tikilib. Ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənayemiqyaslı ilk günəş-elektrik stansiyasıdır.

Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyasında 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib. Stansiya 110 mindən çox evi elektrik enerjisi ilə təmin edəcək.

Elə bu stansiyanın açılış mərasimi çərçivəsində dövlətimizin başçısının iştirakı ilə Azərbaycan Hökuməti və "Masdar" şirkəti arasında ümumi gücü 1000 MVt olan "yaşıl enerji" layihələri üzrə üç investisiya müqaviləsi imzalandı. İnvestisiya müqavilələri Biləsuvar rayonunda 445 MVt gücündə, Neftçala rayonunun Bankə qəsəbəsində 315 MVt gücündə günəş-elektrik stansiyaları və Abşeron-Qaradağ rayonunda 240 MVt gücündə külək-elektrik stansiyası layihələrinin icrasını nəzərdə tutur. İnvestisiya müqavilələri 2022-ci ilin iyun ayında şirkətlə bərpaolunan enerji mənbələri üzrə 4 QVt gücündə "Meqa" layihələrin qiymətləndirilməsi, inkişafı və həyata keçirilməsi ilə bağlı imzalanmış icra müqavilələrinin birinci mərhələsini əhatə edir.

Bu il iyunun 4-də isə Bakı Enerji Həftəsinin açılışı günü, eyni zamanda sözügedən stansiyaların təməli qoyuldu. Bakı Ekspo Mərkəzində təməlqoymadan əvvəlki çıxışında Prezident İlham Əliyev demişdir: "Bu gün həqiqətən də əlamətdar gündür. Bakı Neft və Qaz Sərgisində qaz müqaviləsinin imzalanmasından 28 il sonra, 1 qiqavat həcmində bərpaolunan enerji ilə bağlı artıq imzaladığımız müqavilələr nəticəsində bu gün təməlqoyma mərasimi baş tutacaqdır. Artıq qeyd etdiyim kimi, bu sadəcə, başlanğıcdır, çünki potensialımız nəhəngdir. Bizim tərəfdaşlarımız qlobal səviyyədə aparıcı şirkətlərdir və dediyim ki, "Masdar" "yaşıl enerji"yə keçid sahəsində ən öndə gedən şirkətdir".

Dövlətimizin başçısı digər bir vacib məqamı da vurğulamışdır: "Hesab edirəm ki, BƏƏ-dən bir il sonra Azərbaycanın COP29-a evsahibliyi etməsi heç də təsadüf deyil. BƏƏ-nin bizə ötürdüyü miras olduqca dəyərlidir. Birincisi, mən dostum nazir Sultan əl-Cabiri təbrik etmək istəyirəm və salamlarımı qardaşım, BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zahid Əl-Nəhyana çatdırmağı xahiş edirəm. Həmçinin COP istiqamətində irəlilədiyimiz bu mürəkkəb yolda qardaşımın dostluğuna, tərəfdaşlığına və dəyərli tövsiyələrinə görə təşəkkürümü bildirirəm".

Deyilənlərə yalnız onu əlavə edək ki, "Masdar"ı BƏƏ hökuməti 2006-cı ildə yaradıb. O vaxtdan bəri şirkət zəngin təcrübə toplayıb, günəş və külək enerjisinin inkişafına milyardlarla dollardan çox sərmayə yönəldərək onlarla layihənin iştirakçısı olub. "Masdar" daim təmiz texnologiya innovasiyalarını artırmağa, Yaxın Şərqdə, eləcə də dünyada bərpaolunan enerji sektorunun inkişafına mühüm töhfələr verməyə səy göstərir. "Masdar" qlobal "yaşıl hidrogen" təşəbbüslərinə qoşularaq BP, "Siemens Enerqy", "TotalEnergies", "Marubeni Corporation", Əbu-Dabi Enerji Departamenti və dünyada tanınmış bir sıra digər şirkətlərlə əməkdaşlıq edir.

Azərbaycan bu şirkətin çalışdığı 40-dan çox ölkədən biridir. Onun fəaliyyət göstərdiyi ölkələr sırasında BƏƏ ilə yanaşı, Səudiyyə Ərəbistanı, İordaniya, Misir, Mərakeş, Böyük Britaniya, ABŞ, Avstraliya, Serbiya, Hindistan, İndoneziya, Özbəkistan və bir çox başqaları var. "Masdar"ın ölkəmizlə də əməkdaşlığının perspektivlərinin böyük olduğu şəksizdir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Leyla HƏSƏNOVA: "İqlim dəyişikliyi ilə bağlı həllər hazırlayarkən gənclərin nəzərə alınması zəruridir"

**"Ən böyük gənclər təşkilatı olan Qoşulmama Hərəkatının Gənclər Təşkilatı yüksəksəviyyəli görüşlər, bacarıqların artırılması üzrə proqramlar və forumlar vasitəsilə müxtəlif ölkələrdən olan insanlarla fikir mübadiləsi aparmağa çalışır. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil iqlim prosesində hamının, o cümlədən uşaqların və gənclərin də səslərinin eşidilməsində həlledici rol oynayır".**

AZƏRTAC xəbər verir ki, bunu Qoşulmama Hərəkatı Gənclər Təşkilatının sədri, COP29-un iqlim üzrə gənclər çempionu Leyla Həsənova Qoşulmama Hərəkatının Gənclər Təşkilatının mənzil - qərargahında keçirilən görüşdə deyib.

"İqlim dəyişmələrinin fəsadları gənclərə də təsir edir. Gənclər iqlim dəyişmələrinin təsirlərinə məruz qalan tərəfdir. Ancaq biz iqlim dəyişikliyi ilə bağlı həllərə öz töhfəmizi verə bilərik və verməliyik. İqlim dəyişikliyi ilə bağlı həllər hazırlayarkən gənclərin nəzərə alınması zəruridir. Biz həmin istiqamətdə aparıcı rol oynamalı və ambisiyaların artırılması üçün çalışmalıyıq.

Bu il iqlim fəaliyyəti ilə bağlı bacarıqlar əldə etməyiniz üçün, əsasən, təhsilə sərmayə yatıracağıq. COP29-un gənclər iqlim çempionu olaraq mən hər birinizlə tərəfdaşlıq edərək səsinizin COP29-da eşidilməsinə çalışacağam. Odur ki, hər birinizi fikrinizi deməyə və fəal olmağa səsləyirəm", - deyə L.Həsənova qeyd edib.

# Xarici və yerli QHT-lər "COP29 QHT Koalisiyası" yaradıb

**"Xarici QHT-lərdən Azərbaycan Milli QHT Forumuna COP29-la əlaqədar çoxsaylı əməkdaşlıq təklifləri daxil olmaqdadır. Məsələni İdarə Heyətində müzakirə etdik və qərara aldıq ki, "COP29 QHT Koalisiyası" yaratmağa təşəbbüs göstərək. Təşəbbüsümüz xarici QHT-lər tərəfindən yüksək maraqla qarşılandı. Artıq 30 ölkədən 108 xarici QHT bu koalisiyaya qoşulmağa razılıq verib. Müraciətlər hər gün davam edir, ola bilsin ki, bu şəbəkə daha da genişlənsin. Azərbaycanda ilk dəfədir ki, belə qlobal formatda və nəhəng miqyasda yerli və xarici QHT-lərin əməkdaşlığı qurulur. Artıq vətəndaş cəmiyyəti COP29-un Azərbaycana bəxş etdiyi unikal imkanları hiss edir". Bunu Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin sədri Ramil İskəndərli bəyan edib. O bildirib ki, bu əməkdaşlığın qurulmasında Azərbaycan Milli QHT Forumunun üzvləri yaxından iştirak ediblər: "Hər kəs bu prosesə maksimum öz töhfəsini verməyə çalışır".**

Ramil İskəndərli deyib ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransında (COP) müşahidəçi statusa (observer status) malik 3 qrup təşkilat mövcuddur. Onlardan birincisi, Birləşmiş Millətlər Təşkilatı sistemi və onun ixtisaslaşmış qurumlarıdır; ikincisi, hökumətlərarası təşkilatlardır; üçüncüsü isə QHT-lərdir. Hazırda UNFCCC çərçivəsində 3631-i QHT müşahidəçi statusa malikdir. Həmin bu təşkilatların təxminən 90 faizi 9 Həmfikir Qrupda (Constituency) birləşib. Bura ENGO (Environmental groups), BINGO (Business and industry), WGC (Women and gender), RINGO (Research and academic institutes), Farmers (Farming and agriculture), TUNGO (Labour unions), YUNGO (Youth and children groups), LGMA (Local governments and municipal authorities) və IPO (Indigenous populations) daxildir: "3 Qeyri-formal Qrup (Faith-Based Organizations (FBOs), Education, Communication and Outreach Stakeholders (ECOs) və Parliamentarians) da mövcuddur. Həmçinin Əlilliyi olan Şəxslər Qrupu da (Disability Caucus) həmin Qeyri-formal Qrup kimi başa düşülür. Müəyyən qrup QHT-lər isə heç bir Həmfikir Qrupunun üzvü deyil və ayrıca fəaliyyət göstərirlər".

R.İskəndərli qeyd edib ki, Azərbaycan Milli QHT Forumu 9 Həmfikir Qrupla, o cümlədən Qeyri-formal qruplarla da sıx əməkdaşlıqda maraqlıdır: "COP29 QHT Koalisiyası"nda yer alan 36 QHT Həmfikir Qrupların (Constituency) təmsilçiləridir. 9 Həmfikir Qrupdan 5-nə daxil olan QHT-lər hazırda koalisiyada yer alır. Bu, koalisiyanın hansı miqyasda iş apara biləcəyi ilə bağlı aydın təsəvvür yaradır. Bu təşkilatların inkişaf etməkdə olan ölkələrdən QHT-lərlə qlobal diskussiyaları inklüzivliyi təmin edir. Koalisiyadakı xarici QHT-lərdən 68-i inkişaf etməkdə olan ölkələrdəndir".

O, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi ilə birgə QHT-lər üçün "COP29-la bağlı beynəlxalq təşəbbüslər" müsabiqəsini elan etməsinə də toxunub: "Bu o deməkdir ki, yerli QHT-lərin xarici QHT-lərlə birgə COP29-la əlaqədar birgə layihə icra etməsinə imkan yaranır. Bu müsabiqədə xarici tərəfdaş qismində iştirak edən UNFCCC müşahidəçi statusa malik təşkilatların məhz inkişaf etməkdə olan ölkələrdən, xüsusilə ən az inkişaf etmiş ölkələrdən və inkişaf etməkdə olan kiçik ada ölkələrindən olmasına üstünlük veriləcəyi açıqlanıb. Bu, Azərbaycan dövlətinin inklüzivlik məsələsinə necə həssas, qayğı ilə yanaşdığını aydın nümayiş etdirir. Biz də istəyirik ki, COP29-da dünyanın bütün yerlərindən olan vətəndaş cəmiyyəti qurumlarının səsi eşidilsin. Koalisiyada yer alan QHT-lərin bu müsabiqədə fəal iştirak edəcəyini düşünürük".

Forumun İdarə Heyətinin sədri əlavə edib ki, Azərbaycanın İEOÖ-in maraqlarını güclü müdafiə etməsi dünyada da rəğbətlə qarşılanır: "Fikrimcə, bu məsələ Azərbaycanın Qoşulmama Hərəkatına 4 illik sədrliyi dövründən başladı. Bu, çox faydalı platforma oldu, Azərbaycana dünyanın problemlərini görməyə daha yaxşı şərait yaratdı. "Hələ 2023-cü ildə - Qoşulmama Hərəkatına sədrlik dövründə Azərbaycan kiçik ada dövlətlərinə post-pandemiya çətinliklərinin həlli üçün dəstək göstərməyə çağırış etmişdi, bu məqsədlə maliyyə vəsaiti də ayırmışdı. Kiçik ada dövlətləri Azərbaycana böyük ümidlərlə baxırlar. Rəsmi şəxslərin verdiyi açıqlamalardan belə başa düşürük ki, Azərbaycan onlar üçün "Commonwealth" təşkilatı ilə birlikdə xüsusi texniki dəstək fondunun formalaşdırılmasına çalışır".

R.İskəndərli deyib ki, bu prizmadan baxdıqda mənzərə daha aydın görünür: "Ona görə də Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi ilə birgə QHT-lər üçün "COP29-la bağlı beynəlxalq təşəbbüslər" adlı müsabiqə elanında xüsusilə ən az inkişaf etmiş ölkələrdən, inkişaf etməkdə olan kiçik ada ölkələrindən olan QHT-lərin iştirakına üstünlük veriləcəyi hissəsini oxuyanda aydın olur ki, Azərbaycan təkcə vədlər vermir, bu kateqoriyadan olan dövlətlərə imkanı daxilində maliyyə dəstəyi də təklif edir".

Ramil İskəndərli iyulun 18-də "COP29 QHT Koalisiyası"nın "Zoom" vasitəsilə hibrid görüşünün də keçirildiyini, görüşdə fikirlərin dinlənildiyini, birgə əməkdaşlıq imkanlarının ətraflı araşdırıldığını vurğulayıb.

Azərbaycan Milli QHT Forumunun rəhbəri COP29 sədrliyinə müraciət də hazırlayacaqlarını açıqlayıb: "Pre-COP tədbirlərində UNFCCC çərçivəsində 3631-i müşahidəçi QHT-nin mütləq əksəriyyətinin birləşdiyi 9 Həmfikir Qrupun (Constituency) təmsilçilərinin iştiraka dəvət edildikləri barədə məlumatlıyıq. Bu xüsusda, oktyabrda "Pre-COP29" tədbirləri üçün Həmfikir Qrupların təmsilçilərinin Bakıda olduğu zaman çox istərdik ki, bu səfər çərçivəsində "COP29 QHT Koalisiyası"nın təşəbbüskarı olan Azərbaycan Milli QHT Forumunun nümayəndələrinin onlarla görüşü təşkil edilsin. Biz ev sahibi olan ölkənin vətəndaş cəmiyyətinin təmsilçiləri kimi onların da səsini eşitmək istəyirik. Ümid edirik ki, bu müraciətimiz cavabsız qalmayacaq, nəticə verəcək".

# ÜST Vahid Sağlamlıq dialoqu keçirir

**Cari ilin noyabrında Bakıda keçiriləcək COP29 tədbirinə hazırlıq məqsədilə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı ölkə ofisi "Vahid Sağlamlıq: sektorlararası dialoqla COP29-a hazırlıq" adlı simpozium təşkil edib.**

AZƏRTAC xəbər verir ki, tədbir Vahid Sağlamlıq yanaşmasını və insan-heyvan-ətraf mühit interfeysində təhdidləri azaltmaq üçün davamlı strategiyaların işlənib hazırlanmasında onun mühüm rolunu anlamaq üçün yerli və beynəlxalq tərəfdaşları bir araya gətirib.

Simpozium potensial təhlükələri azaldan, iqlim dəyişikliyinin sağlamlığa təsirlərini aradan qaldıran və bütün sektorlarda davamlılığı təşviq edən davamlı strategiyaların işlənib hazırlanması üçün hərtərəfli çərçivə sənədini təklif edib. Tədbirdə COP29 üçün nəzərdə tutulan müzakirələr və məqsədlərə uyğun olaraq, iqlim dəyişikliyi ilə mübarizə üçün inteqrasiya olunmuş sağlamlıq və ətraf mühit siyasətlərinə ehtiyac olması vurğulanıb.

Simpoziumda COP29 sədrliyi, müvafiq nazirliklər, universitetlər, vətəndaş cəmiyyəti, özəl sektor, gənclər və BMT agentliklərinin qərar qəbul edən şəxsləri və texniki ekspertləri iştirak ediblər.

İştirakçılar sektorlararası əməkdaşlığın təşviqi, yerli və qlobal səviyyələrdə Vahid Sağlamlıq prinsiplərinin həyata keçirilməsi üçün effektiv strategiyaların işlənib hazırlanmasına yönəlmiş müzakirələrdə iştirak ediblər. Son onillikdə əhəmiyyətli dərəcədə rolu böyüyən Vahid Sağlamlıq yanaşması insan, heyvan və ətraf mühitin sağlamlığının qarşılıqlı əlaqəsini vurğulayır. Bu inteqrasiya olunmuş strategiya iqlim dəyişikliyi, zoonoz xəstəliklər və ətraf mühitin deqradasiyası nəticəsində yaranan çoxşaxəli problemlərin həlli üçün vacibdir.

Vahid Sağlamlıq əvvəlki COP tədbirlərində də əsas müzakirə mövzusu olub. COP27-də "Ətraf Mühitin Vahid Sağlamlığa inteqrasiya edilməsi" adlı paralel tədbir insanların və heyvanların rifahının təmin edilməsində ətraf mühitin sağlamlığının mühüm rolunu vurğulayıb. Xüsusilə iqlim dəyişikliyi kontekstində ekoloji mülahizələrin Vahid Sağlamlıq fəaliyyətlərinə inteqrasiyası üçün strategiyalar müzakirə edilib. COP28 zamanı ətraf mühitin sağlamlığının Vahid Sağlamlıq yanaşmasına daxil edilməsinin vacibliyini vurğulayan Vahid Sağlamlıq Birgə Fəaliyyət Planı təqdim olunub. Bu plan, Vahid Sağlamlığın iqlim dəyişikliyinin çoxşaxəli təsirlərinin aradan qaldırılmasında mühüm roluna diqqət çəkərək beynəlxalq iqlim və sağlamlıq siyasəti dialoqlarında onun əhəmiyyətini gücləndirib.

Tədbir müzakirələrlə davam etdirilir.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Sənayenin inkişafı iqtisadiyyatın şaxələnməsinə təkan verir

### Bunu rəsmi statistika da təsdiqləyir

**Sənaye bu gün Azərbaycan iqtisadiyyatında məşğulluğu və əhalinin gəlirlərini təmin edən başlıca sahələrdən biridir. Dünyanın bütün ölkələrində iqtisadi vəziyyət sənayenin inkişaf səviyyəsi ilə ölçülür. Çünki ölkə iqtisadiyyatının şaxələndirilməsi kimi strateji bir vəzifənin uğurlu həlli məhz sənaye kompleksinin rəqabət qabiliyyətindən asılıdır.**



Hazırda ölkədə ən yüksək səviyyədə sənayenin inkişafına xüsusi önəm verilir, mövcud təbii və iqtisadi resursların istehsala cəlb edilməsi, qabaqcıl texnologiyaların daha geniş tətbiqi üçün sistemli tədbirlər həyata keçirilir. Xüsusilə də son 20 ildə rəqabətqabiliyyətli müasir sənaye sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra edilib, yeni iş yerləri açılıb, ölkə sənayesi yeni inkişaf mərhələsinə qədəm qoyub. Prezident İlham Əliyevin "Bizim uğurlu inkişafımız qeyri-neft sənayesinin hesabına təmin edilməlidir" prinsipinə əsaslanmaqla başqa sahələrlə yanaşı, sənayenin inkişafı yolunda da önəmli addımlar atılır. İnnovativ metodlarla sənaye istehsalı genişləndirilir, yeni istehsal sahələri yaradılır, davamlı olaraq sistemli və uğurlu nəticə verən tədbirlər həyata keçirilir. Sənayenin strukturuna diqqət yetirdikdə qeyri-neft sənayesinin artım tempinin daha yüksək olduğunu görmək mümkündür. Sadəcə bu ilin ilk altı ayının nəticələrinə nəzər yetirsək, fikrimizi təsdiq etmiş oluruq.

Dövlət Statistika Komitəsinin məlumatına görə, yanvar-iyun aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 31,5 milyard manatlıq sənaye məhsulu istehsal edilib. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə neft-qaz sektorundakı məhsul istehsalında 0,3 faiz, qeyri-neft-qaz sektorunda isə 7,4 faiz artım deməkdir. Sənaye məhsulunun 65 faizi mədənçıxarma, 29,2 faizi emal, 4,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub. Sənayedə qeyri-dövlət sektorunun payı 81,6 faiz olub. Ümumi istehsalın 89,7 faizi sənaye məhsullarının istehsalı, 10,3 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılıb.

Statistikaya əsasən deyə bilərik ki, bu gün Azərbaycan qeyri-neft iqtisadiyyatının üstün inkişafına nail olmaqla bir tərəfdən müxtəlif mallara olan daxili istehlak tələbini tam şəkildə yerli istehsal hesabına təmin etmək, digər tərəfdən isə xarici bazarlarda Azərbaycan brendi olan məhsullarla təmsil olunmaq və bu yolla neft daxilolmalarının azalmasını kompensasiya etmək məqsədi güdür. Qlobal iqtisadiyyata sıx inteqrasiya edən Azərbaycan, eyni zamanda yeni sənaye quruculuğu siyasətində də dünya miqyasında öz təsdiqini tapan və yaxşı nəticələr verən qabaqcıl təcrübədən bəhrələnir. İndi dünyanın ayrı-ayrı inkişaf etmiş ölkələrində sənaye quruculuğunda müşahidə edilən əsas trendlərdən biri müxtəlif istehsal sahələrinin hər cür infrastruktur təminatına malik eyni bir məkanda cəmləşməsi və innovasiyalara əsaslanan sənaye parklarının yaradılması ilə bağlıdır. Ölkəmiz də məhz bu yolu tutub. Ölkənin müxtəlif bölgələrində sənaye parkları və məhəllələri yaradılıb. Hazırda Azərbaycanda 7 sənaye parkı (Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası") və 5 sənaye məhəlləsi (Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur) fəaliyyət göstərir.

Məlum olduğu kimi, işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının hərəkətə gətirilməsi istiqamətində də geniş tədbirlər həyata keçirilir. Artıq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "Ağdam" və "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları yaradılıb. Həmin parklarda, ümumilikdə, 18 rezident və 6 qeyri-rezident qeydiyyata alınıb. Adıçəkilən sənaye parklarında qeydiyyata alınmış 24 layihə üzrə 138 milyon manatdan çox investisiyanın yatırılması nəzərdə tutulur ki, bunun da hesabına 1300-ə yaxın iş yerinin yaradılması planlaşdırılır. Ağdam Sənaye Parkında tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının emalı və qablaşdırılması, "Araz Vadisi İqtisadi Zonası"nda isə əsasən logistika mərkəzinin yaradılması, gömrük terminalının qurulması, avadanlıq və texnikaların təmiri mərkəzi, topdansatış və pərakəndə anbarlarının tikilməsi və satışı həyata keçiriləcək. Xatırladaq ki, sənaye parklarının, sənaye məhəllələrinin idarəedici təşkilatı əsasən İqtisadi Zonaların İnkişafı Agentliyidir (İZİA).

Elə buradaca İZİA-nın məlumatına diqqət edək: 2015-ci ildən 2024-cü ilin birinci yarısında sənaye zonalarında 13,5 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, bunun da 4,4 milyard manatlıq hissəsi ixrac edilib. Həmçinin 2024-cü ilin birinci yarısında sənaye zonalarında 1,4 milyard manatlıq satış olub. Bunun da 477 milyonluq hissəsi ixracın payına düşür. Sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 70-dən artıq ölkəsinə yola salınıb. Eyni zamanda sənaye zonalarına sahibkarların cəlb edilməsi, investisiyaların yatırılması və yeni iş yerlərinin yaradılması istiqamətlərində yeni-yeni müsbət addımlar atılır. 2013-cü ildən indiyədək sənaye zonaları üzrə ümumi investisiya həcmi 8,4 milyard manat olan 151 sahibkarlıq subyektinə rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,8 milyard manatdan çox investisiya yatırılıb və 10500-dən çox daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manata yaxın investisiyanın yatırılması və 7100-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur.

Sənaye parklarında bu günlər yaradılan yeni istehsal sahələri haqqında məlumatları da əlavə etsək, Azərbaycanda qeyri-neft-qaz sektorunun inkişaf tempini aydın görmək olar. "Qarabağ Aqro 44" MMC-yə Ağdam Sənaye Parkının rezidenti statusu verilib. Bildirilib ki, müəssisədə sucuq istehsal olunacaq. İnvestisiya dəyəri 1,4 milyon manat olan müəssisədə 20 nəfər işlə təmin ediləcək. İstehsal olunan məhsulların daxili bazara satışı ilə yanaşı, ixracı da nəzərdə tutulub. Sumqayıt Kimya Sənaye Parkında (SKSP) isə bu il iki müəssisə fəaliyyətə başlayacaq. "Kartaş Kimya" MMC kimyəvi tikinti məhsullarının, "Az-Tex-İmport" MMC "NECO" markalı az, orta və çoxtonnajlı yük avtomobillərinin istehsalı ilə məşğul olacaq. Hər iki müəssisə sənaye parkına ümumilikdə 40 milyon manata yaxın sərmayə qoymaqla 300-dən artıq əlavə iş yerinin yaradılmasına imkan verəcək.

Yenə də İZİA-nın məlumatlarına söykənərək qeyd edək ki, Cənubi Qafqazın ən böyük sənaye parkı olan SKSP-də ümumi investisiya həcmi 62 milyard manat olan 40 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Parkda hazırda 24 müəssisə fəaliyyət göstərir. Bundan başqa, indiyədək SKSP-yə 5,5 milyard manatdan çox sərmayə qoyulub, 6800-dək daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə sənaye parkına əlavə olaraq 554 milyon manat investisiyanın qoyulması, 2200-dən çox iş yerinin yaradılması nəzərdə tutulur. Bugünədək parkın rezidentləri tərəfindən ümumilikdə 11,6 milyard manatdan çox məhsul satışı həyata keçirilib ki, bunun da 4,1 milyard manatdan çox hissəsi (təxminən 35,3 faizi) ixracın payına düşür. Bu ilin ilk altı ayında SKSP-də istehsal olunan 1,3 milyard manatlıq məhsulun 455 milyon manatlıq hissəsi ixrac edilib.

Qeyd edək ki, sənaye zonaları istehsalın genişləndirilməsi, idxalın əvəz edilməsi və yeni ixrac imkanlarının yaradılması baxımından əlverişli mexanizmdir. Bu baxımdan, şübhəsiz ki, innovativ əsaslarla tikilən yeni sənaye müəssisələri ən yüksək standartlara cavab verəcək və güclü ixracyönümlü sənaye potensialı yaradacaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## 6 ayda Naftalana 18681 nəfər turist gəlib

**Sağlamlıq turizmi son illər dünyada sürətlə inkişaf edən sahəyə çevrilmişdir. Məhz buna görə də Prezident İlham Əliyevin diqqət və qayğısı ilə həyata keçirilən tədbirlər nəticəsində Naftalan öz əvvəlki şöhrətini özünə qaytarmış, uzun sürən durğunluqdan sonra yenidən qapılarını istər yerli, istərsə də xarici turistlərin üzünə açmışdır.**




Qeyd edək ki, 19 xəstəliyin dərmanı olan naftalan nefti indiyədək yüz minlərlə xəstəyə şəfa vermişdir. Bütün bunlar nəzərə alınaraq hər il Naftalanda yeni-yeni sağlamlıq ocaqları istifadəyə verilir. Bunun da nəticəsində yerli və xarici turistlərin qəbul edilməsində əvvəllər yaranan çətinliklər aradan qalxır. Hazırda daha bir sağlamlıq ocağında - "Nafta" sanatoriyasında son tamamlama işləri görülür ki, bununla da şəhərdə 20-ci sağlamlıq ocağı turistlərin ixtiyarına veriləcək. 81 otaqdan və 172 çarpayıdan ibarət olan sanatoriyada turistlər üçün ən yüksək şərait yaradılmışdır.

Onu da qeyd edək ki, şəhər rəhbərliyi turistlərin məmnun qalması üçün hər il mövsümqabağı geniş hazırlıq işləri həyata keçirir. Şəhərdə abadlıq və quruculuq işləri aparılmaqla istirahət və əyləncə yerlərində yenidənqurma işləri görülür. Əvvəlki illərdə olduğu kimi, cari ildə də şəhər rəhbərliyi bir neçə yeniliyə imza atmışdır. Belə ki, sağlamlıq və turizm imkanlarını özündə birləşdirən, Beynəlxalq Turizm Mərkəzi olan Naftalanda "Visit Naftalan" mobil tətbiqi yaradılmışdır. Turistlər üç dildə fəaliyyət göstərən "Visit Naftalan" tətbiqinin yaradılmasını yüksək dəyərləndirirlər. İndi şəhərə gələn qonaqlar "Visit Naftalan" mobil tətbiqini "Android" və "İOS" əməliyyat sistemi ilə çalışan mobil telefonlardan yükləyə bilirlər.

Həyata keçirilən bütün bu işlər həm yerli əhalini, həm də kənardan gələn turistləri razı salır. Məhz bunun nəticəsidir ki, əvvəlki illərdə olduğu kimi, cari ilin ötən dövrü ərzində də şəfa tapmaq, eləcə də mənalı istirahət etmək üçün Naftalana gələn turistlərin sayında xeyli artım qeydə alınmışdır. Cari ilin ötən 6 ayı ərzində Naftalana 18681 nəfər turist gəlmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 4 min nəfər çoxdur. Gələn turistlərin 6917 nəfəri 37 ölkədən olan xarici vətəndaşlardır. Xarici ölkələrdən gələn turistlər arasında Rusiya Federasiyasından, Qazaxıstan və Özbəkistan respublikalarından olan vətəndaşlar üstünlük təşkil edirlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## İnnovasiyalar Mərkəzi "iFest" innovasiya və texnologiya festivalının rəsmi tərəfdaşıdır

**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İnnovasiyalar Mərkəzinin rəsmi tərəfdaşlığı, Kiçik və Orta Biznes Subyektləri və Klubları Assosiasiyasının (KOBSKA) təşkilatçılığı ilə ölkəmizdə ilk "iFest" innovasiya və texnologiya festivalı keçirilib.**

Dövlət Agentliyindən AZƏRTAC-a bildirilib ki, əsas məqsəd texnologiya şirkətlərinin tanıtımı, startapların inkişafına dəstək, onların maliyyə imkanlarına çıxışının təmini və nümayişidir. Açılış mərasimində İnnovasiyalar Mərkəzinin direktoru Vüsal Rüstəmov "yaşıl iqtisadiyyat"ın genişləndirilməsi istiqamətində həyata keçirilən bu kimi tədbirlərin əhəmiyyətindən, enerji səmərəliliyinə malik "yaşıl texnologiya"ların tətbiqindən söz açıb. Həmçinin Dövlət Agentliyi və İnnovasiyalar Mərkəzinin həyata keçirdiyi layihələri diqqətə çatdırıb.

Tədbirdə "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzinin rezidenti "iLab" startapı tərəfindən istehsal olunan "Charge Box" elektrik qidalanma stansiyaları barədə məlumat verilib. Bildirilib ki, elektromobil sahiblərinin işini asanlaşdırmaq məqsədilə istifadəyə verilən "Charge Box" mobil tətbiqi enerjidoldurma stansiyalarını axtarmaq, ödənişlər etmək və seansları idarə etmək üçün əsas interfeys rolunu oynayır. Belə ki, yerli ödəniş sistemlərinə inteqrasiya olunan bu tətbiq vasitəsilə istifadəçilər ödənişdən əlavə stansiya və ya məntəqədə, yerində nağdsız ödəniş, tam və saatlıq doldurma kimi seçim imkanlarını əldə edirlər. Həmin stansiyalar artıq bir çox "ASAN xidmət" mərkəzində və yanacaqdoldurma stansiyasında quraşdırılıb.

Sonra "Gələcəyin innovasiyası: texnologiyaya istiqamət verən trendlər və strategiyalar" və "COP29 və innovasiya: dayanıqlı gələcək üçün innovativ həllər" mövzularında panel müzakirələr start götürüb.

## Elektron Təhlükəsizlik Xidməti Qırğız Respublikasının nümayəndə heyəti ilə görüş keçirib

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN) yanında Elektron Təhlükəsizlik Xidmətində Qırğız Respublikasının rəqəmsal inkişaf nazirinin müavini Klim Omelçenkonun başçılıq etdiyi kibertəhlükəsizlik üzrə nümayəndə heyəti ilə görüş keçirilib. RİNN-dən bildirilib ki, görüşdə Qırğızıstanda milli CERT-in yaradılması və beynəlxalq təşkilatlarla əməkdaşlığın qurulması istiqamətində Azərbaycanın təcrübəsinin öyrənilməsi, kibertəhlükəsizlik üzrə qurumlar arasında əməkdaşlıq sahələri, məlumat mübadiləsi və kadr potensialının artırılması imkanları müzakirə olunub. Müzakirələrdə Dünya Bankının və Beynəlxalq Telekommunikasiya İttifaqının nümayəndələri də iştirak ediblər.

Tərəflər arasında beynəlxalq əməkdaşlığın qurulması və bu istiqamətdə mütəmadi görüşlərin keçirilməsi qərara alınıb.

## Yanvar-iyun aylarında sosial sahə üzrə 192 minədək e-arayış verilib

**Bu ilin yanvar-iyun aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyət sahələri üzrə 192 minədək elektron arayış verilib.**




Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, son illər əmək, məşğulluq, sosial təminat, əlillik, reabilitasiya və s. sahələr üzrə geniş elektronlaşma proqramı çərçivəsində 30-dan çox e-arayış xidməti istifadəyə verilib.

Həmin e-xidmətlər vətəndaşlara iş yerinə və əlilliyə dair, pensiya, müavinət, təqaüd, maddi yardım, ünvanlı yardım, dövlət tərəfindən mənzil və avtomobillə təmin edilmə, fərdi şəxsi hesab və s. barədə e-qaydada arayış əldə etmələrinə imkan yaradır.

## Son altı ayda məcburi dövlət sosial sığorta üzrə 80 milyon manatdan çox vəsait ödənilib

**Bu ilin yanvar-iyun ayları ərzində məcburi dövlət sosial sığorta haqları hesabına verilən müavinətlər üzrə 80,4 milyon manat vəsait ödənilib.**

Bu barədə AZƏRTAC-a Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidmətindən məlumat verilib.

Beləliklə, ötən ilin analoji dövrü ilə müqayisədə 3,9 milyon manat və ya 5 faiz çox vəsait xərclənib.




## İpoteka kreditindən əsasən gənclər faydalanırlar

**Prezident İlham Əliyevin yürütdüyü sosial siyasətin başlıca hədəfi insanların rifahının yaxşılaşdırılmasıdır. Son illər bu istiqamətdə əhatəli tədbirlər həyata keçirilib və insanların sosial rifah halı daha da yaxşılaşıb.**

Dövlətimizin başçısının 2023-cü il yanvarın 5-də imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" sərəncam bir daha təsdiqləyir ki, Azərbaycanın sosial dövlət modeli nümunəvi və uğurludur. Dövlətimizin başçısı dəfələrlə qeyd edib ki, bizim siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun sosial rifahının gündən-günə yaxşılaşdırılması dayanır.

Əhalinin güzəranını yaxşılaşdırmaqdan ötrü istinad olunan ən müxtəlif və çoxsaylı mənbələrdən biri də ipoteka kreditləridir. Əsasən gənclər və gənc ailələr belə vasitələrdən, xüsusən də onun güzəştli tranşından bəhrələnərək sosial durumlarını qaydaya salır, daşınmaz əmlaka, məşğulluğa aid ehtiyaclarını ödəyə bilirlər.

Qeyd edək ki, ipoteka ilə bağlı dünyada müxtəlif formalar var. Bəzi ölkələrdə xüsusi ipoteka bankı yaradılıb. Gənc ailələrə güzəştli kreditlər bu yolla verilir və ya dövlət bankının nəzdindəki bir şöbə vasitəsilə maliyyələşmə aparılır. Ümumiyyətlə, ipoteka kreditləri istehlak məqsədilə verilən kreditlər qrupuna aiddir. Təyinatı mənzilin və ya digər fərdi yaşayış evinin alınmasıdır. Bu kredit növü uzunmüddətli olmaqla yanaşı, illik faiz dərəcəsinin aşağılığı ilə seçilir. Belə ki, əksər istehlak kreditlərində illik faiz dərəcəsi 20-29 faiz arası dəyişirsə, ipoteka kreditlərində bu göstərici kredit götürən şəxsin sosial statusundan asılı olaraq 4-8 faiz civarındadır.



Bizdə də ipoteka ilə bağlı hökumət hər il büdcədən xeyli vəsait ayırır. Dövlət İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) banklara ayırdığı vəsaitlər hesabına rəsmiləşdirən ipoteka kreditləri "güzəştli" və "adi" olmaqla 2 yerə bölünür.

Güzəştli ipoteka şəhid ailələri və Milli qəhrəmanların ailələrinin üzvlərinə, elmi dərəcəsi olanlara, dövlət qulluqçularına və ya xalq-dövlət-hökumət qarşısında xüsusi xidmətlərinə görə fərqlənən gənc ailələrə verilir. Onun adi ipotekadan fərqi kredit müddətinin 5 ilədək çox olması (30 il) və illik 4 faizliyidir. Təxminən 1-2 il öncə ipoteka kreditlərinin ən geniş yayılan növü - standart və ya adi ipoteka şərtləri mövcud idi. Belə ki, kreditin maksimal müddəti 25 il, illik faiz dərəcəsi isə 8 faiz müəyyən edilmişdi. Digər şərtlərdə (ilkin ödəniş və bank xərci) cüzi fərqlər olsa da, bu çox da nəzərə çarpmır. Kreditin maksimal məbləği isə 150 min manatdır.

Cari ilin yanvar-iyun aylarında İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına 230,2 milyon manat həcmində ipoteka krediti verilib ki, onun da 64,6 milyon manatını güzəştli ipoteka kreditləri təşkil edir. Fonddan bildirilib ki, ilin əvvəlindən adi ipoteka kreditləri hesabına 1710, güzəştli ipoteka kreditləri hesabına isə 821 vətəndaş və ya ailə özünün mənzil şəraitini yaxşılaşdırıb. İyul ayının 1-nə olan məlumata görə, bu il verilmiş ipoteka kreditlərinin orta məbləği 91 min manat təşkil edib. Şəxsi yığımları yetərli olmayan əhalinin daha aşağı ilkin ödənişlə ipoteka kreditindən faydalanmasını təmin etmək məqsədilə iyulun 1-nə fond tərəfindən 81,5 milyon manat məbləğində 967 ipoteka krediti üzrə zəmanət verilib.

Ümumilikdə indiyədək fondun vəsaiti hesabına 3,1 milyard manat dəyərində ipoteka krediti verilib ki, bu da 50 min 380 ailənin mənzil şəraitini yaxşılaşdırmasına imkan yaradıb. Qeyd edildiyi kimi, ipoteka kreditlərindən faydalananların 67 faizi gənclər və gənc ailələrdir.

*Qurban MƏMMƏDOV,*
*"Azərbaycan"*





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!



# Zəfər parkı qəhrəmanlıq simvoludur

**Tarix heç vaxt heç nəyi unutmur. Zaman-zaman baş vermiş hadisələri gələcək nəsillərə çatdırmaq üçün daim daş yaddaşında qoruyub saxlayır. Azərbaycan xalqının 44 günlük Vətən müharibəsində qazandığı qələbəni də tarix heç vaxt unutmayacaq. Müstəqil Azərbaycanın hərb tarixinin şanlı səhifəsi kimi özündə əbədi yaşadacaq.**

2020-ci il sentyabrın 27-də erməni təxribatı nəticəsində başlayan və 44 gün davam edən müharibə Azərbaycanın qələbəsi, Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Bu möhtəşəm qələbənin qazanılmasında Azərbaycan əsgəri və zabiti əsrlər boyu böyük maraqla oxunacaq qəhrəmanlıq dastanları yazdı. Hərbçilərimiz torpaqlarımızın hər qarışı uğrunda cəsarətlə vuruşdular, şirin canlarını belə Vətən uğrunda qurban verməkdən çəkinmədilər. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu əməliyyatlar nəticəsində Silahlı Qüvvələrimiz 30 ilə yaxın işğalda qalmış ərazilərimizi düşməndən azad etdilər. Azərbaycan Ordusunun əməliyyatlar zamanı həyata keçirdiyi döyüş taktikası bu gün də dünyanın bir çox aparıcı ölkələrinin hərbi mütəxəssisləri tərəfindən diqqətlə öyrənilir.

İllərdən bəri həsrətini çəkdiyimiz, 4 ildir ki sevincini yaşadığımız Zəfər qəhrəmanlıq və hünər sayəsində əldə olundu. Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində Ermənistan silahlı qüvvələrini ağır məğlubiyyətə uğradaraq yenilməz gücünü, qüdrətini bütün dünyaya nümayiş etdirdi. Bir daha təsdiq olundu ki, işğalçı, təcavüzkar məhvə məhkumdur. Düşmən üzərində qazanılmış bu möhtəşəm qələbədə hər bir əsgərin, hər bir zabitin payı var.

İkinci Qarabağ müharibəsində Azərbaycan xalqına Zəfər sevinci yaşadan qəhrəman zabit və əsgərlərimiz də unudulmadı. Onlar dövlət tərəfindən layiqincə mükafatlandırıldılar. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən "Zəfər" və "Qarabağ" ordenləri, həmçinin 15 yeni medal olmaqla - "Vətən Müharibəsi Qəhrəmanı", "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" medalları təsis olundu. Vətən müharibəsində iştirak etmiş, aparılan döyüş əməliyyatlarının uğurla başa çatmasına töhfə vermiş hərbi qulluqçular, həmçinin mülki işçilər yeni təsis edilmiş orden və medallarla təltif edildilər.

Yaşanılmış tarix bir daha göstərir ki, qəhrəmanlıq heç vaxt unudulmur. 2020-ci ilin dekabrın 3-də Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncama uyğun olaraq, Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda daim yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması işləri aparılır. Dövlət başçısının sərəncamından dərhal sonra Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihələri hazırlandı və sürətlə tikinti işlərinə başlanıldı.

Azərbaycan Prezidenti İlham Əliyev iyulun 24-də Bakıda Zəfər parkında aparılan tikinti işləri ilə tanış olub. "PMD Projects" şirkətinin direktoru Nəriman Topçıbaşev parkda görülən işlər barədə dövlətimizin başçısına məlumat verib.

Xatırladaq ki, 2023-cü il sentyabrın 27-də Anım Günündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar. Dövlətimizin başçısı və birinci xanım burada görülən işlərlə yaxından tanış olub, dəyərli məsləhət və tövsiyələrini veriblər.

8 Noyabr prospektində inşa olunan Zəfər parkının ərazisi doqquz hektardan çoxdur. Diqqətçəkən məqamlardan biri də odur ki, parkın girişində 44 tağ elementindən istifadə edilib. Bu tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edir. İnşası davam edən tağların hündürlüyü 44 metr, eni isə 22 metrdir.

Parka keçid hissədə 8 Noyabr - Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə Zəfər Gününü və sarsılmaz birliyimizi təcəssüm etdirəcək. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınacaq. Zəfər Muzeyinə park ərazisindən iki istiqamətdə giriş olacaq. Sahəsi 9 min 200 kvadratmetr olan muzeyin yan divarında Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan əsgər və zabitlərin adları yazılacaq.

Ziyarətçilər muzeyi gəzdikdən sonra park hissəsinə daxil ola biləcəklər. Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası və parka ümumi baxış nöqtəsi yaradılacaq. Parkın sonunda Azadlıq Bayrağı Meydanının inşası da nəzərdə tutulur. Yaddaş bağçası parkın son hissəsində yaradılacaq. Bu hissəyə enən cığır hündür haşiyəli çiçək və yaşıllıqlarla əhatə olunacaq. Yaddaş bağçasının ətrafında istirahət guşələri yaradılacaq, oturacaqlar qoyulacaq. Su hövzəsinin mərkəzində isə Azərbaycan Bayrağı dalğalanacaq.

İstifadəyə veriləndən sonra qələbəmizin rəmzi olan - Zəfər parkı xalqımızın ən sevimli ziyarətgahına çevriləcək. Zəfər parkı qəhrəmanları daim özündə yaşadacaq. Eyni zamanda park qəhrəmanların, cəsurların məskəninə çevriləcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● Tarix yazan oğullar

# Adı qürurla anılan igid

**O, hələ uşaq ikən hərbçi olmaq istəyirdi, oldu da...**



Cavid Hilal oğlu Mahmudov 1989-cu il fevralın 6-da Biləsuvar (o zamanlar Puşkin adlanırdı) rayonunun Aşağı Cürəli kəndində dünyaya gəldi. 1995-2006-cı illərdə Aşağı Cürəli kənd tam orta məktəbində oxudu. Ali hərbi təhsil almaq arzusu ilə paytaxta üz tutdu. 2006-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) daxil oldu. 2010-cu ildə həmin məktəbi bitirdi.

Cavid Mahmudov xidmət etdiyi bütün hərbi hissələrdə - 2010-2012-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Daşkəsən rayonunda yerləşən "N" saylı hərbi hissəsində, 2012-2018-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Tovuz rayonunda yerləşən "N" saylı hərbi hissəsində, 2018-2020-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin Göygöl rayonunda yerləşən "N" saylı hərbi hissəsində nümunəvi hərbçi oldu. O, 2008-ci ildə "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi", 2013-cü ildə "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi", 2018-ci ildə isə "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalları ilə təltif edildi.

2020-ci ildən Azərbaycan Silahlı Qüvvələrinin Abşeron rayonunda yerləşən "N" saylı hərbi hissəsində xidmətdə idi. Yenə də peşəsinə böyük sevgisi və məsuliyyəti ilə başqalarına nümunə göstərilirdi.

Bu ərəfədə işğalçı Ermənistan silahlı qüvvələrinin növbəti təxribatı 2020-ci il sentyabrın 27-də İkinci Qarabağ müharibəsinin başlanması ilə nəticələndi. Azərbaycan Ordusunun kapitanı Cavid Mahmudov da qəsbkar düşmənə qarşı döyüşlərdə iştirak etdi.

Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində - Qarabağda və Şərqi Zəngəzurda on illər ərzində qurduğu, alınmaz saydığı istehkamları, səngərləri rəşadətli ordumuz dağıdır, qətiyyətlə irəliləyirdi. Ermənistan silahlı qüvvələri igid azərbaycanlı döyüşçülərin qarşısında aciz qalır, məğlubiyyətləri ilə barışmalı olur, geri çəkilirdilər.

Cavid Mahmudovun komandiri olduğu həmlə taboru da düşmənə ağır zərbələr endirirdi. İgid kapitan əsgərlərinə "Yalnız irəli!" əmrini verir, komandanlığın qarşıya qoyduğu tapşırığı böyük əzmlə, rəşadətlə yerinə yetirirdi. Aldıqları yüksəkliklərdə bayrağımızı dalğalandırmağı Cavid Mahmudov özünə ən böyük qürur, mükafat hesab edirdi.

Böyük Zəfər qazanacaqlarına əmin olduğunu oktyabrın 2-də qardaşı ilə telefon danışığında da söylədi...

O, azad etdikləri sayca 5-ci yüksəkliyə bayrağımızı sancarkən düşmən snayperi tərəfindən vuruldu. Oktyabrın 5-də Füzulinin azadlığı uğrunda döyüşdə şəhid olan Cavid Mahmudov Biləsuvar rayonunun Aşağı Cürəli kəndində dəfn edildi.

Qəhrəman kapitanın şəhid olduğu gün anasının peşə bayramı idi. Cavidin anası, həm də sinif müəllimi olan Nəsibə xanım illərdir sevinclə qeyd etdiyi gündə - 2020-ci il oktyabrın 5-də həyatının ən ağır gününü yaşadı. O, vətənpərvər, qəhrəman hərbçi oğlunun toyuna hazırlaşırdı. Cavid nişanlı idi. Nişanlısı yolunu gözləyirdi. Toy günləri də təyin olunmuşdu...

İndi dərdli anasının və digər doğmalarının ən böyük təsəllisi budur - Cavid Vətən torpaqlarını azad etmək uğrunda, işğalçı düşmənə qarşı cəsarətlə, şücaətlə döyüşərək şəhid oldu.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik, mərdlik nümayiş etdirdiyinə görə Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Cavid Mahmudov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı", "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edildi.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş Vətən müharibəsi qəhrəmanlarının və Azərbaycanın milli qəhrəmanlarının adlarının əbədiləşdirilməsini təmin etmək məqsədilə Biləsuvar Rayonu Uşaq-Gənclər İdman-Şahmat məktəbinə Vətən Müharibəsi Qəhrəmanı Cavid Hilal oğlu Mahmudovun adı verildi.

Cavid Mahmudovun uğrunda şəhid olduğu torpaqlarımız bu gün azaddır. İndi o yerlərdən mənfur düşmənin izləri də silinir. Tarix isə silinməyəcək. İkinci Qarabağ müharibəsi də unudulmayacaq. Azərbaycan xalqı Böyük Zəfərin qürurunu ona yaşadan Cavid kimi qəhrəmanları hər zaman minnətdarlıqla anacaq.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Əbədiyyətə qovuşanlar

# Yaddaşlarda cəsur əsgər kimi qaldı

**Rəşad İlham oğlu Mikayılzadə 1995-ci il sentyabrın 30-da Lerik rayonunun Camaşəir kəndində dünyaya göz açıb. Bakı şəhərindəki 240 nömrəli tam orta məktəbi bitirdikdən sonra Sumqayıt Dövlət Universitetinə qəbul olunub. Ali təhsilini başa vurduqdan sonra Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirmək üçün hərbi xidmətə yollanıb. Əsgəri xidmətini cəbhə bölgəsində yerləşən hərbi hissədə yerinə yetirib.**



2015-ci ildə ölkəmizdə keçirilən I Avropa Oyunlarının könüllüsü olub. Üzərinə düşən vəzifələri vaxtında və layiqincə yerinə yetirib. Avropa Oyunları zamanı göstərdiyi nümunəvi könüllü xidmətə görə mükafatlandırılıb.

2020-ci il sentyabrın 27-də erməni təxribatı nəticəsində Vətən müharibəsi başlayanda Rəşad Mikayılzadə taytuşlarından geri qalmadı. Könüllü olaraq döyüşə yollandı. Torpaqların azadlığı naminə yenidən əyninə hərbi forma geyindi. Onun erməni qəsbkarlarına qarşı ilk döyüşü Füzuli rayonu uğrunda oldu. Daim ön sıralarda vuruşan Rəşad silah yoldaşları ilə dəqiq atəşlə erməni işğalçılarına zərbələr endirməkdə fərqləndilər. Füzuli rayonu qəsbkarlardan azad olunandan sonra onları Xocavənd istiqamətinə göndərdilər. Qarabağ işğalçılardan addım-addım azad olunduqca Rəşad sevinir, ürəyi açılırdı. Bir vaxtlar o, işğalda qalmış torpaqlar uğrunda vuruşmağı arzulamışdı. İndi arzusuna çatmışdı, Qarabağı erməni qəsbkarlarından azad edənlərin ön sırasındaydı.

Xocavənddən sonra Rəşadgili Şuşa uğrunda gedən döyüşlərə cəlb etdilər. 2020-ci il noyabrın 8-də ordumuzun gücü, qüdrəti sayəsində Azərbaycanın musiqi beşiyi Şuşa işğaldan azad olundu. Şuşanın yağı caynağından xilas olunmasına Rəşad da çox sevindi. Bunda xidməti olduğu üçün qürurlandı, ömrünün ən gözəl anlarını yaşadı.

Noyabrın 9-u idi. Döyüşlər daha çox işğaldan yenicə azad olunmuş Şuşa ətrafında gedirdi. Əsgər Rəşad Mikayılzadə həmişəki kimi yenə də ön sıralarda vuruşurdu. Ötəngünkü döyüşdə ağır itkilər verib geri çəkilən yağılar olub-qalan gücünü toplayıb əks-hücuma keçmişdilər. Düşmən onların komandirini vurmağa çalışırdı. Həmin an Rəşad böyük qəhrəmanlıq göstərərək özünü komandirin qarşısına atıb onu xilas etdi. Amma özü şəhid oldu.

Əsgər Mikayılzadə bir payız günündə dağlar qoynunda dünyaya gəlmişdi. Elə bir payız günündə də dağlar qoynunda - 2020-ci il noyabrın 9-da Şuşa ətrafında gedən döyüşlərdə canından keçdi. Cəsarəti, hünəri ilə qəhrəmanlıq tariximizə yeni səhifələr yazdı.

Ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda gedən döyüş əməliyyatlarında göstərdiyi igidliyə və cəsarətə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə Mikayılzadə Rəşad İlham oğlu ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.

Vətən uğrunda şəhid olanlar heç vaxt unudulmur. Rəşad Mikayılzadə də yaddaşlarda cəsur əsgər kimi qalacaq. Daim hörmətlə anılacaq, böyük ehtiramla xatırlanacaq.

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Şəhid hərbi pilot Rəşad Atakişiyevin xatirəsi anılıb

**Təlim-məşq zamanı qəzaya uğrayan Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsinin hərbi pilotu polkovnik-leytenant Rəşad Atakişiyevin həlak olmasının 5-ci ildönümü ilə əlaqədar iyulun 24-də anım mərasimi keçirilib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən verilən məlumata görə, əvvəlcə İkinci Şəhidlər xiyabanında şəhid hərbi pilotumuzun məzarı ziyarət olunub, üzərinə əklil və gül dəstələri qoyularaq xatirəsi ehtiramla yad edilib.

Sonra Müdafiə Nazirliyi əməkdaşlarının, ictimaiyyət nümayəndələrinin, şəhidin ailə üzvləri, yaxınları və döyüş yoldaşlarının iştirakı ilə Azərbaycan Hərb Tarixi Muzeyində tədbir keçirilib.

Tədbirdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Çıxış edənlər şəhidimizin şərəfli döyüş yolundan, vətənpərvərliyindən, peşəkarlığından, döyüş əzmindən və milli-mənəvi dəyərlərimizə bağlılığından danışıblar.

Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Sonra polkovnik-leytenant R.Atakişiyevə həsr olunan videoçarx nümayiş etdirilib.

Tədbirdə vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən musiqi nömrələri ifa olunub.

## Hərbi Dəniz Qüvvələri fakültəsinin kursantları ilə praktiki məşğələlər keçirilir

Heydər Əliyev adına Hərbi İnstitutun 2023-2024-cü illər üçün tədris planı və proqramına uyğun olaraq, Hərbi Dəniz Qüvvələri fakültəsinin kursantları ilə praktiki məşğələlər keçirilir.

Müdafiə Nazirliyindən bildirilib ki, əvvəlcə kursantlara gəmidə davranış və təhlükəsizlik qaydaları barədə məlumat verilib, eləcə də şəxsi heyətin gündəlik fəaliyyəti izah edilib.

Məşğələlər zamanı baş komanda məntəqəsində idarəetmənin təşkili, döyüş gəmilərinin "səfərə" və "döyüşə" hazır vəziyyətinə gətirilməsi, radiolokasiya stansiyası vasitəsilə texniki, eləcə də hərəkət zamanı vizual müşahidənin aparılması, semafor bayraqları ilə siqnal rabitəsinin təşkili üzrə tapşırıqlar yerinə yetirilib. Sonra Xəzər dənizinin Azərbaycan Respublikasına məxsus sektorunda



keçirilən praktiki məşğələlərdə idarəetmənin təhlükəsizliyi və gəminin maşın bölməsində hərəkətvericilərin istismarı qaydaları izah olunub.

Məşğələlərin əsas məqsədi kursantların tədris müddətində yiyələndikləri nəzəri biliklərin və praktiki vərdişlərin daha da təkmilləşdirilməsidir.

## "Şahdağ"da şəhid və qazi ailələri üçün tədbir təşkil edilib

**Dövlət Turizm Agentliyinin tabeliyindəki "Şahdağ" Turizm Mərkəzinin təşkilatçılığı ilə Quba, Qusar və Xaçmaz rayonlarından olan 100-ə yaxın Vətən müharibəsi şəhidlərinin ailə üzvləri üçün növbəti tədbir keçirilib.**

Turizm Mərkəzindən bildirilib ki, sosialyönümlü tədbir çərçivəsində şəhid ailələri üçün kompleks ərazisinə ekskursiya təşkil edilib, müxtəlif attraksionlardan, kanat xətlərindən istifadə imkanı yaradılıb, o cümlədən interaktiv oyunlar keçirilib, musiqili-əyləncəli proqramlar təşkil edilib.



Tədbirin keçirilməsinin məqsədi 44 günlük Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi uğrunda canlarını qurban verən qəhrəmanların övladlarını sevgi və qayğı ilə əhatə etməkdir.



# XXXIII Paris Yay Olimpiya Oyunları

# "Paris-2024" problemlərlə başlayır

## Atletlər, nümayəndə heyətləri təşkilatçılıqdan narazılıq edirlər

**Fransa dünyanın ən böyük idman tədbirini qəbul edir. Paris şəhərində sayca XXXIII Yay Olimpiadasının açılışına saatlar qalır. Dünyanın ən mötəbər idman yarışında təxminən 10 mindən çox idmançı 329 dəst medal uğrunda mübarizə aparacaq.**




Yay Olimpiadası 1900-cü və 1924-cü illərdən sonra üçüncü dəfə Fransada keçiriləcək. Dördilliyin ən nüfuzlu yarışının proqramına 28 idman növü ilə yanaşı, breykdans, idman dırmanması, skeytbordinq və dalğa sörfinqi kimi yeni növlər də daxil edilib. 17 gün davam edəcək oyunlarda medal qazanan idmançılar özləri ilə Parisin simvolu hesab olunan Eyfel qülləsindən bir parça götürə biləcəklər. Belə ki, qüllənin təmiri zamanı dəyişdirilən hissələr yarış üçün hazırlanmış medalların tərkibinə əlavə olunub.

Deməli, mükafata layiq görülən idmançılar sinələrində Eyfel qülləsindən orijinal parça daşıyacaqlar. Medalların ortasına qoyulan dəmir parçaların hər birinin çəkisi 18 qram olacaq.

Amma baş verən hadisələr onu göstərir ki, "Paris-2024" tarixə həm də gərgin keçən, etirazlarla çalxalanan Olimpiada kimi düşəcək. Çünki Fransada hazırda prezident Emmanuel Makron hakimiyyətinə qarşı aksiyalar, ədalətsizliyə görə etirazlar davam edir. Ölkədə ədalətdən, tolerantlıqdan əsər-əlamət qalmayıb.

Hətta Fransa hökuməti öz Olimpiya yığmasının üzvlərinə qarşı da haqsızlıq edir. Belə ki, yığma komandada mübarizə aparan hicablı atletlər heyətdən kənarlaşdırılıb. Bu səbəbdən də Parisdə kütləvi etirazlar keçirilir.







Olimpiada zamanı 15 milyon turisti qəbul edən Parisdə sürücü çatışmamazlığı, metro və qatar xidmətlərində gecikmələr səbəbindən ictimai nəqliyyatda ciddi sıxlığın olduğu bildirilir. Mümkün tıxacların qarşısını almaq üçün hökumət müvafiq tədbirlər görməyə davam edir. Bu məqsədlə parisliləri oyunlar zamanı evdən işləməyə təşviq etmək üçün kampaniyaya başlanılıb. Kampaniya çərçivəsində paytaxt küçələrində, metro və şəhərətrafı qatar stansiyalarında "Olimpiya Oyunları zamanı vaxta qənaət etmək üçün evdən işləmək vacibdir" sözlərinin yazıldığı lövhələr asılıb. Həmin lövhələrdə oyunlar zamanı vətəndaşlara və turistlərə ictimai nəqliyyat səfərlərini əvvəlcədən planlaşdırmağa kömək edəcək vebsayt haqqında məlumatlar da yer alıb.

Bütün bunlar göstərir ki, Fransa Yay Olimpiya Oyunlarını təşkil edərkən xeyli çətinliklərlə üzləşməkdədir. Ölkədə ümumi vəziyyət ürəkaçan deyil, milli iqtisadiyyatda tənəzzül əlamətləri müşahidə edilir. Bir neçə ildir ölkədə etiraz aksiyaları baş alıb gedir. İctimaiyyət sosial-iqtisadi vəziyyətin gərginləşdiyi bir vaxtda baha başa gələn beynəlxalq idman tədbirlərinə milyardlarla dollar vəsait ayrılmasından narazıdır.

Paris Olimpiya Oyunlarında iştirak edəcək bir sıra idmançılar Olimpiya kəndindəki yaşayış şəraitindən də narazılıqlarını bildiriblər. Qeyd olunub ki, idmançılar sosial şəbəkələrdə karton çarpayılardan, yeməklərdən, televizorun olmamasından şikayətlənirlər. "Bu, zarafat deyil, gördüyünüz kimi, Olimpiya çarpayısı kartondandır" - fransalı cüdoçu Jülyen Bryular deyib. Yerli medianın yazdığına görə, onun sözlərini avstraliyalı su poloçusu Matilda Körns də təsdiqləyib.

Məlumata görə, idmançılar üzləşdikləri sosial problemlərə görə narazılıq edirlər. Media bunun təsdiqi olaraq amerikalı gimnast Aleya Finneqan, onun belçikalı həmkarı Mellis Brassart və yeni zellandiyalı üzgüçü Lyuis Klerbertin yazdıqlarını göstərir.

*Sadalanan problemlərə baxmayaraq, Azərbaycan yığma komandasının Paris Olimpiadasında yüksək nəticə əldə etmək imkanı kifayət qədərdir. İdmançılarımızın təxminən yarısı Olimpiya medallarına iddialıdırlar. Xüsusilə güləşçilərə, cüdoçulara, boksçulara ümid böyükdür. Eyni zamanda gimnastika və avarçəkmə növlərində çıxış edən idmançılarımızdan da medallar gözləyirik.*

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Nazim Hüseynov qızıl medala ümidlidir

**"Bütün idmançılarımız Olimpiya oyunlarına hazırdır. O cümlədən cüdoçularımız da artıq hazırlıq prosesini yekunlaşdırıblar". Bu sözləri "Barselona-1992" Yay Olimpiya Oyunlarının çempionu Nazim Hüseynov deyib.**



O, komandamızın Parisdə ən azı bir qızıl medal qazanacağına ümid etdiyini bildirib: "Əgər cüdoçulardan danışmalı olsam, federasiyanın seçimini düzgün qiymətləndirərəm. Olimpiadada (-60 kq çəkidə) Balabəy Ağayevdən medal gözləyirəm. Bunun üçün onun yaxşı hazırlıq səviyyəsi var.

Yığma komandanın əsas liderlərindən olan Hidayət Heydərovun da medal qazanmasına ümid bəsləyirik. Öz çəkisində reytinq cədvəlində birinci olan Hidayət bu il bir ay ərzində həm Avropa, həm də dünya çempionatında qızıl medal qazandı. Amma onu da nəzərə almaq lazımdır ki, bütün rəqibləri ona qarşı ciddi hazırlaşırlar. Elcan Hacıyev (- 90 kq) də çox perspektivli cüdoçudur. O da Parisdə yaxşı nəticə göstərə bilər. Elcan bu yaxınlarda Olimpiya çempionuna və yaponiyalı idmançıya qalib gəlib. Bu da Olimpiadada medal qazanmaq üçün ümid verir. Dünya çempionumuz Zelim Kotsoyev (-100 kq) medal qazanmağa əsas namizədlərdəndir. Düşünürəm ki, onun üçün əsas ciddi rəqiblər gürcüstanlı və yaponiyalı idmançılar olacaq. Düzdür, proqnoz vermək çətindir. Amma ümid edirəm ki, bu oyunlarda cüdo yarışlarında ən azı bir qızıl medalımız olacaq. Bütün növlər üzrə çıxış edəcək idmançılarımıza uğurlar arzu edirəm. İnanıram ki, hər bir idmançımız yeni qələbələrlə xalqımızı sevindirəcək".

# Basketbolçularımızın oyun tarixləri məlumdur

**İyulun 30-dan avqustun 5-dək Fransanın paytaxtı Paris şəhərində keçiriləcək 3x3 basketbol üzrə Olimpiya oyunlarında qadınlardan ibarət millimizin oyun təqvimi müəyyənləşib. Millimizin oyun cədvəli aşağıdakı kimidir:**

| | | |
|---|---|---|
| 30 iyul | saat 23:00 | İspaniya - Azərbaycan |
| 31 iyul | saat 23:30 | ABŞ - Azərbaycan |
| 1 avqust | saat 14:30 | Azərbaycan - Fransa |
| 1 avqust | saat 20:30 | Almaniya - Azərbaycan |
| 2 avqust | saat 11:30 | Avstraliya - Azərbaycan |
| 2 avqust | saat 19:30 | Çin - Azərbaycan |
| 3 avqust | saat 19:30 | Kanada - Azərbaycan |



Reqlamentə əsasən, 8 komandanın yer aldığı qrupdan ilk iki sıranı tutmuş millilər yarımfinala vəsiqə qazanacaqlar. 3-cü, 4-cü, 5-ci və 6-cı pilləni tutmuş yığmalar isə pley-in oyunlarında (3-6, 4-5) iştirak edərək yarımfinala vəsiqə qazanmağa çalışacaqlar.

# Yaylagül Ramazanovanın rəqibi çinli olacaq



**Azərbaycanın ilk təmsilçisi Paris-2024 Yay Olimpiya Oyunlarında bu gün mübarizəyə başlayıb.**

Kamandan oxatma növündə Yaylagül Ramazanova gücünü sınayıb.

Sıralama turuna 30-cu cütdə başlayan təmsilçimiz 39-cu yeri tutub. O, 720 mümkün xaldan 647 xal toplayıb. Milli üzvü mövsümdə ən yaxşı nəticəsinə imza atıb.

Y. Ramazanova 1/32 finalda Quxuan Anla (Çin) qarşılaşacaq. Onun rəqibi sıralama turunu 656 xalla 26-cı pillədə başa vurub.

1/32 final görüşləri iyulun 30-da keçiriləcək.

# Olimpiadada qalmaqal

**Fransanın paytaxtı Parisdə 2024-cü il Yay Olimpiya Oyunlarının açılış mərasimi bu gün olacaq, amma 3 idman növündə artıq yarışlar başlayıb. Futbol yarışlarının ilk günündə 8 matç keçirilib.**



Argentina millisi Mərakeşə, Özbəkistan İspaniyaya, Ukrayna İraqa, ABŞ Fransaya, Qvineya Yeni Zellandiyaya uduzub. Yaponiya millisi Paraqvaya qalib gəlib.

Argentina Futbol Federasiyası (AFA) Argentina və Mərakeş komandaları arasındakı oyundan sonra FİFA İntizam Komitəsinə şikayət edib. AFA oyun iştirakçılarının təhlükəsizliyi üçün tədbirlərin görülməsini tələb edib. Komandalar arasında yarış görüşün ikinci hissənin əsas vaxtına əlavə olunmuş 16-cı dəqiqədə 2:2 hesabı ilə yarımçıq kəsilib.

Argentinanın ikinci qolundan sonra Mərakeş millisinin azarkeşləri meydançaya qaçaraq argentinalı futbolçuların üzərinə fişəng atıblar. İki saat sonra matç boş tribunalar önündə başa çatıb və argentinalıların ikinci qolu ofsayd səbəbindən ləğv edilib. Mərakeş yığması 2:1 hesabı ilə qalib gəlib.

# Parisdə beynəlxalq forum keçirilib

**UNESCO-nun təşkilatçılığı ilə Fransanın paytaxtı Parisdə idman nazirlərinin "Change the Games" beynəlxalq forumu keçirilib. "Paris-2024" Yay Olimpiya Oyunları ərəfəsində baş tutan forumda proqram üzrə müxtəlif məsələlər müzakirə olunub.**



Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov forumda çıxış edib, panel iclaslarında müzakirələrə qatılıb. Nazir Azərbaycanın UNESCO və müxtəlif ölkələrin müvafiq qurumları ilə əməkdaşlıq məsələləri, həyata keçirilən layihələr barədə məlumat verib.

Fərid Qayıbov forum çərçivəsində UNESCO baş direktorunun sosial və humanitar elmlər üzrə müavini, Çili Respublikasının idman naziri, Anqolanın gənclər və idman naziri, Madaqaskarın nəqliyyat və meteorologiya naziri, Tanzaniya Birləşmiş Respublikasının Nazirlər Kabinetinin ədliyyə və konstitusiya işləri naziri, Cənubi Afrika Respublikasının idman, incəsənət və mədəniyyət naziri, Samoanın idman və istirahət naziri və Kosta-Rika Respublikasının idman naziri ilə ikitərəfli görüşlər keçirib.

Azercell

# abunəçilərinin nəzərinə

26 avqust 2024-cü il tarixindən etibarən, aşağıdakı cədvəldə göstərilən ölkədə həm fakturalı xətt, həm də fakturasız (SimSim) xətt sistemlərinə aid nömrələrdə rominq xidmətindən istifadəyə görə rominq sazişi mövcud olan operatorlar üzrə vahid xidmət haqları tətbiq ediləcək:

| Ölkə | İstiqamətindən asılı olmayaraq daxil olan zəngin hər bir dəqiqəsinə görə xidmət haqqı | Bütün istiqamətlərə edilən zəngin hər bir dəqiqəsinə görə xidmət haqqı | Mobil İnternet xidmətinin hər bir MB görə xidmət haqqı |
|---|---|---|---|
| Çili, Kosta-Rika, El Salvador, Qvatemala, Paraqvay, Uruqvay, Puerto Riko | 0,50 | 3.00 | 6.00 |

**Tariflər AZN ilə, ƏDV daxil qeyd edilib.**

**Qeyd:** Abunəçilər Rominq xidməti, tarifləri, həmçinin Rominqdə İnternet Paketlərinin sifarişi və istifadə şərtləri, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən **(www.azercell.com)**, həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.

Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 30.07.2024-cü il tarixdə gün ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" qəzetinə

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC kompressorun satın alınması məqsədilə

***açıq müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən ələvə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 31 iyul 2024-cü il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, M.Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***

# "Estafeti yeni nəslə ötürmək qərarına gəldim"

## Co Baydenin xalqa müraciəti siyasi etirafdan daha çox seçkiqabağı təbliğata bənzəyib

**ABŞ Prezidenti Co Bayden xalqa niyə partiya yoldaşlarının təzyiqinə boyun əydiyini və seçki yarışından geri çəkildiyini izah etməyə çalışıb. Onun qısa müraciəti ümumi sözlər, xidmətlərinin sadalanması və vitse-prezident Kamala Harrisə səs verməyə çağırışlardan ibarət olub. Eyni zamanda Baydenin çıxışı siyasi etirafdan daha çox seçkiqabağı təbliğata bənzəyib. Demokratın əleyhdarları onun çıxışından məyus olduqlarını bildiriblər, müttəfiqləri isə təqaüdə çıxan veterana hörmət etməyə çağırıblar.**



Amerikalılar dörd il bundan əvvəl böyük inam bəslədikləri və bir neçə gün əvvəl seçkidən geri çəkilən prezidentin çıxışı zamanı onların gözləri qarşısında tarixin yazılacağını gözləyirdilər. Lakin gözləntilər özünü doğrultmayıb. Əvəzində Co Bayden Demokratlar Partiyasını və vitse-prezident Kamala Harrisi ABŞ prezidentliyinə namizəd kimi dəstəkləmək üçün 11 dəqiqəlik təşviqat nitqi ilə çıxış edib və administrasiyasının nailiyyətlərini sadalayıb.

Co Bayden çıxışının əvvəlində bildirib: "Əziz amerikalı həmyerlilərim, mən sizə bu axşam Oval kabinetdə iş masamın arxasından müraciət edirəm. Bu müqəddəs yerdə məni Amerikanın görkəmli prezidentlərinin portretləri əhatə edir. Tomas Cefferson millətimizin riayət etdiyi ölməz sözləri yazıb. Corc Vaşinqton göstərdi ki, ABŞ prezidentləri kral deyil. Avraam Linkoln bizi qəzəbdən əl çəkməyə çağırdı. Franklin Ruzvelt bizi qorxudan qurtulmağa ruhlandırdı. Mən bu vəzifəyə hörmət edirəm, amma ölkəmi daha çox sevirəm. Sizin prezidentiniz olmaq mənim həyatımın şərəfidir, lakin təhlükə altında olan demokratiyanı qorumaq, inanıram ki, hər hansı tituldan daha vacibdir".

Baydenin sözlərinə görə, partiyanı bu kritik vəziyyətdə birləşdirməyə ehtiyac var idi, ona görə də heç kim və heç nə, o cümlədən şəxsi ambisiyalar, demokratiyanı xilas etmək yolunda mane olmamalıdır. Buna görə də ABŞ Prezidenti "estafeti yeni nəslə ötürmək qərarına gəldim" deyib.

Amerikanın "krallar və diktatorlar" tərəfindən idarə olunmadığını, onun gələcəyini xalqın müəyyən etdiyini vurğulayan Co Bayden "mən seçimimi etdim" deyib.

O, sabiq prezident Donald Trampla debatdakı uğursuz performansından fərqli olaraq inamla danışıb. Baxmayaraq ki, otaqdakı media nümayəndələrinin dediyinə görə, bəzi sözləri ayırd etmək onlar üçün çətin olub. Bundan əlavə, çıxış monoton olub və Prezident telesuflyordan gözlərini çəkməyib.

Co Bayden heç yerə getməyəcəyinə və Oval kabinetdə qalan altı ay ərzində başladığı işi axıra çatdıracağına söz verib. Bu müddət ərzində o, zəhmətkeş ailələrin xərclərini azaltmaq, şəxsi azadlıqların və vətəndaş hüquqlarının qorunmasını prioritetləşdirmək, həmçinin ekstremizmə qarşı çıxmaq, silahlara daha güclü nəzarət üçün mübarizə aparmaq və iqlimin müdafiəsi problemlərini həll etmək və Ali Məhkəmə islahatı həyata keçirmək niyyətində olduğunu söyləyib.

Xarici siyasətə gəlincə, Prezident qlobal azadlıq və təhlükəsizliyi müdafiə edəcəyinə söz verib.

Bundan əlavə, Bayden Sakit okean regionundakı müttəfiqlərini qoruyacağını və Çinin yüksəlişinə qarşı çıxacağını, həmçinin Yaxın Şərqə sülh və təhlükəsizlik gətirəcəyini vəd edib. O, təkcə Qəzzadan deyil, hər yerdən "amerikalıları evlərinə gətirmək üçün gecə-gündüz işləyəcəyinə" söz verib.

Bu arada Ağ Evin keçmiş rəhbəri və Respublikaçılar Partiyasından prezidentliyə namizəd Donald Tramp keçmiş rəqibinin çıxışını şərh edərək onu bəyənmədiyini vurğulayıb: "Oval kabinetdə hiyləgər Co Baydenin çıxışı çətin başa düşülən və çox pis idi. Həm ABŞ Prezidenti, həm də onun himayədarı Kamala Harris Amerikanın böyük rüsvayçılığıdır".

Qeyd edək ki, Donald Trampın qiymətləndirməsi ümumilikdə mühafizəkar ictimaiyyətin reaksiyası ilə üst-üstə düşüb.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Paytaxtda hava əsasən yağmursuz keçəcək

**Azərbaycanda iyulun 26-na gözlənilən hava proqnozu açıqlanıb.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava dəyişkən buludlu, əsasən yağmursuz keçəcək. Lakin iyulun 26-na keçən gecə yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 29-34° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 754 millimetr civə sütunu olacaq. Nisbi rütubət gecə 70-80, gündüz 50-60 faiz olacaq.

Abşeron çimərliklərində gözlənilən hava şəraiti: mülayim şimal-şərq küləyi əsəcək. Dəniz suyunun temperaturu-şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zağulba) 24-25°, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Yağışın ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru əksər rayonlarda yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi yerlərdə duman olacağı gözlənilir. Şərq küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 19-24°, gündüz 30-35°, dağlarda gecə 12-17°, gündüz 18-23° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirova anası

**ŞİRİNNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Kürdəmir rayon icra və probasiya şöbəsinin rəisi

**ARİF YƏHYAZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirova anası

**ŞİRİNNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qubadan İlqar Mahmudov Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirova anası

**ŞİRİNNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərliyi və kollektivi Aparatın əməkdaşı Aygün Əsədovaya anası

**SƏDAQƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirova anası

**ŞİRİNNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclis Aparatının sabiq rəhbəri

**SƏFA MİRZƏYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Natiq Əmirova anası

**ŞİRİNNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə
contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3476
Sifariş 1624
Qiyməti 60 qəpik